Bu bir xalq qəzetidi
ƏDALƏT

# İsveçrə Azərbaycanda iqtisadi layihələri üçün 12 milyon dollar ayıracaq

İsveçrə Cənubi Qafqaz üçün 2022-2025-ci illər üzrə regional əməkdaşlıq strategiyası hazırlayır.

Bu barədə İsveçrənin İqtisadiyyat üzrə Dövlət Katibliyindən (SECO) bildiriblər.

Qeyd olunur ki, bu layihə çərçivəsində SECO Azərbaycanda iqtisadi əməkdaşlıq layihələri üçün 12 milyon dollar vəsait ayırmağı planlaşdırır:

”SECO Azərbaycanda Dünya Bankı qrupunun Beynəlxalq Maliyyə Korporasiyaı tərəfindən reallaşdırılan aqrar biznesin rəqabətqabiliyyətliliyi və investisiya mühiti lahiyəsinə maliyyə dəstəyi göstərir. Bu layihə Azərbaycan hökumətini iqtisadiyyatın şaxələndirilməsi və rəqabətqabiliyyətliliyinin yüksəldilməsini dəstəkləyir.

Layihə keyfiyyətli toxumlara çıxış imkanını genişləndirir, aqrar biznes sahəsində dəyər yaratma zəncirinin tənzimlənməsinin optimallaşdırılmasını təmin edir və kənd təsərrüfatı müəssisələri üçün aqrar-maliyyə alətlərinə, kredit və digər məhsullara çıxış imkanlarını artırır”.

# Çavuşoğlu Fransanı Cənubi Qafqazda sülhü dəstəkləməyə çağırıb



**Cənubi Qafqazda Azərbaycanla Ermənistanın rifahını təmin edəcək dayanıqlı sülhü Fransa ilə birlikdə dəstəkləyə bilərik.**

Adalet.az-ın məlumatına görə, bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Fransa qəzetində dərc olunan məqaləsində yazıb.

O bildirib ki, tarixin siyasi məqsədlər üçün istifadə olunması və təhrifi heç bir zaman ədalətin bərpa olunmasımı təmin etməyib:

"Əgər radikal ermənilərin əsassız tələblərinin Türkiyə-Fransa münasibətlərinə xələl gətirməsinin qarşısı alınarsa, iki ölkə birgə səylərlə Cənubi Qafqazın firavanlığı üçün daha çox töhfə verə bilər".

*Aqil ABBAS*

# KÖY QORUCULARI

Bax:səh-3

# Polkovnik taksi sürücülərinə xəbərdarlıq etdi



**Son günlər sosial şəbəkələrdə ”1 manatlıq” taksilərin ləğvi ilə bağlı müzakirələr taksi sürücülərinin narahatlığına səbəb olub.**

**Bununla bağlı açıqlama verən Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi, polis polkovniki Vaqif Əsədov deyib ki, vətəndaşın rəsmi icazəsi varsa, onun 1 manata işləməsinin heç kimə aidiyyəti yoxdur. ”Taksi fəaliyyəti ilə məşğul olmaq üçün qanuni lisenziya sənədi almaq lazımdır. Eyni zamanda, sürücü idarə etdiyi nəqliyyat vasitəsini standart tələblərə uyğun vəziyyətə gətirməlidir. Pandemiya ilə əlaqədar avtomobildə arakəsmədən istifadə etməlidir.**

**Tələb edilən qanunlara riayət edilmədikdə sürücü inzibati xəta tərkibi yaradır. Qeyri-qanuni sərnişin daşınması ilə bağlı sürücülərə tez-tez xəbərdarlıq edirik. Sərnişinlərə də xəbərdarlıq etmişik ki, bəzi ərazilərdə qeyri-qanuni fəaliyyət göstərən ”1 manatlıq” taksilərə qarşı diqqətli olsunlar.**

**Formula-2 ərəfəsində bəzi sürücülər süni qiymət artımı ilə sərnişinlər arasında narazılıq yaradırlar. Belə hallar yolverilməzdir”, - Vaqif Əsədov xəbərdarlıq edib.**

# UNESCO-nun baş direktoru: Azərbaycanlı jurnalistlərin faciəvi ölümü məni sarsıdıb




**Azərbaycanlı jurnalistlər Sirac Abışov və Məhərrəm İbrahimovun Kəlbəcər rayonunda minaya düşərək faciəvi şəkildə həlak olması məni sarsıdıb.**

Bu barədə UNESCO-nun baş direktoru Odre Azulenin bəyanatında deyilir. Baş direktor öz bəyanatında azərbaycanlı jurnalistlərin ölümünü kəskin pisləyib: ”Jurnalistlər peşəkar fəaliyyətlərini şəxsi təhlükəsizliklərini riskə atmadan həyata keçirmək imkanına malik olmalıdır”.

Xatırladaq ki, iyunun 4-də Azərbaycan Televiziyasının operatoru 1989-cu il təvəllüdlü Sirac Abışov və 1982-ci il təvəllüdlü Azərtac İnformasiya Agentliyinin əməkdaşı Məhərrəm İbrahimov (Əlioğlu) Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək həlak olublar. Həmin şəxslər işğaldan azad olunmuş ərazilərdə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış yaşayış məntəqələrinin çəkilişini həyata keçirirdi.

# MİLLƏT DEYİLİK EY, KEFİK BAŞDAN-AYAĞA

***Kəlbəcərdə dəhşətli bir terrora məruz qalmışıq, ikisi jurnalist olmaqla 3 nəfərimiz bu terrorun qurbanı olub.***

***Amma indi saytlara və sosial şəbəkələrə baxıram, bir nəfərin qazi olub-olmaması gündəmi nə təhər zəbt edibsə, şəhidlərimiz day arxa plana keçib və əsl qazilərimiz də bunun əziyyətini çəkir.***

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 59 (5891) 8 iyun 2021-ci il | Qiyməti 30 qəpik

# Azərbaycan quru sərhədlərini açır




*Bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə gömrük orqanlarında hansısa "mənbə"lərə istinadən iyun ayının 15-dən etibarən quru sərhədlərinin açılacağına dair məlumatlar yayımlanıb.*

*Dövlət Gömrük Komitəsindən Adalet.az-a bildirilib ki, sərhədlərin açılmasına dair qərar Azərbaycan Resbublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən verilir, hazırda belə bir qərar olmadığından bu kimi məlumatlar kimlərinsə təxəyyülünün məhsuludur: "Xatırladaq ki, gömrük orqanlarının sərhədlərin açılması ilə bağlı qərar vermək kimi bir səlahiyyəti yoxdur. Media qurumlarına gömrük orqanlarının fəaliyyəti ilə bağlı informasiyalar yayımlayarkən rəsmi məlumatlara istinad etmək tövsiyə olunur".*

# “Bu il Azərbaycana gələn xaricilərin sayı artacaq”



**İyun ayının 10-dan etibarən Rusiya və Türkiyə vətəndaşlarının müəyyən şərtlər daxilində Azərbaycana gəlmələrinə icazə verilməsi turizm sektorunun canlanmasına səbəb ola bilər. Bu il Azərbaycana gələn xarici turistlərin sayının artması gözlənilərdir.**

Bunu açıqlamasında turizm məsələləri üzrə ekspert Ceyhun Aşırov deyib. O bildirib ki, mərhələli şəkildə yumşalmalara gedilməsi turizmin müəyyən qədər canlanmasına və bərpasına kömək edəcək: "Nəzərə alsaq ki, artıq yay mövsümüdür, çimərliklər açılır, Azərbaycana turistlərin gəlməsi üçün əlverişli vaxtdır. Bu baxımdan bu qərar müsbət xarakter daşıya bilər.

Bunun nəticəsində daha çox xarici vətəndaş Azərbaycanı ziyarət edə biləcək. Eyni zamanda həm Azərbaycanda, həm dünyada vaksinləşmə artır. Bu da ümumi olaraq xəstəliyin yayılmasının qarşısını alır və bu da turizmin bərpasında müsbət rol oynayacaq".

# ƏSL VETERANLAR AZ QALA ÖMÜRLƏRİNİ BAŞA VURMAQDADI, AMMA...



**Birinci Qarabağ savaşında Vətən uğrunda sinəsini qızıl gülləyə sipər eləmiş yüzlərlə qazi var ki, əlində də sənədi-sübutu, hərbi bileti hələ də veteranlıq statusu ala bilmirlər. Bu məsələ hətta dəfələrlə Parlamentdə də qaldırılıb, hələ də öz həllini tapa bilməyib.**

Cənab Prezidentin sərəncamı ilə Nazirlər Kabinetinin tərkibində bu məsələni araşdırmaq üçün komissiya da yaradılıb, həmin komissiya da hələ ki ortaya bir nəticə qoymayıb.

Görən, bəs necə olub ki, mətbuatda gündəmdən düşməyən məlum əlil belə bir sənədi ala bilib?

## VACİB BİR XATIRLATMA

**Partizan - işğal altda qalan ərazilərdə öz vətəni uğrunda vuruşan insanlara deyirlər.**

**Bir az diqqətli olun.**

*İlham İsmayıl*

# "Ən yekə erməni diversant, təxribatçı, mina basdıran Xankəndindədir..."

Bax:səh-2



**Müdafiə Nazirliyi Kəlbəcərdə baş vermiş terrorla bağlı hələ ki susur.**

# Daha bir hərbçimizin şəhid xəbəri gəldi



**Vətən müharibəsində itkin düşmüş daha bir hərbçimizin nəşi tapılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Respublika Hərbi Prokurorluğunun mətbuat xidməti məlumat yayıb.

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu, əsgər Məsimov Əkbər Yunis oğlunun meyiti tapılaraq, şəxsiyyəti müəyyən edilməklə aidiyyəti üzrə verilməsi üçün zəruri tədbirlərin görülməsi təmin olunub. İtkin düşmüş digər hərbi qulluqçuların olduqları yerlərin müəyyən olunması məqsədilə əməliyyat-istintaq tədbirlərinin icrası davam etdirilir, eləcə də axtarış qrupları tərəfindən hazırda intensiv işlər aparılır.

# *Azad olunan ərazilərdə aşkarlanan minaların sayı açıqlanıb*

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı təqdim edib.**

ANAMA-dan "Report"a verilən məlumata görə, mayın 31-dən iyunun 6-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılan əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 224, tank əleyhinə 36 mina və 42 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Nəticədə 1 590 892 $m^2$ (159 ha) ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

# *Sabunçuda əl qumbarası tapılıb*

*Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsində sursat aşkar edilməsi barədə məlumat daxil olub.*

*Nazirlikdən verilən məlumata görə, Nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq qüvvələri dərhal hadisə yerinə cəlb edilib.*

*Hadisə yerinə baxış keçirilərkən ərazidə döyüş tətbiqinə yararlı 1 ədəd "F-1" əl qumbarası aşkar edilib.*

*Aşkar edilmiş sursat zərərsizləşdirilməsi üçün XRXX-nin pirotexnikləri tərəfindən ərazidən götürülüb.*



# OPERATİV QƏRARGAH, BİZİ NİYƏ TEATRSIZ QOYURSAN?



**Şükürlər olsun maskalardan canımız qurtardı, rahat nəfəs ala bilirik. Restoranlar, kafelər, çayxanalar açıldı.**

Bəs, bu teatrlar nə vaxt açılacaq? Həm aktyorlara yazığınız gəlsin, həm də teatrsevərlərə. Özü də qorxmayın, hər hansı bir tamaşaya bir restorana yığışandan az tamaşaçı gəlir.

# PKK-nın daha bir təhlükəli üzvü məhv edildi



**Türkiyənin təhlükəsizlik qüvvələri xüsusi antiterror əməliyyatı nəticəsində PKK terror təşkilatına sarsıdıcı zərbə vurub.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Tvitter hesabında yazıb. Bildirilib ki, "Doktor Hüseyn" ləqəbli terrorçu Selman Bozkır Türkiyə Milli Təhlükəsizlik Təşkilatının keçirdiyi xüsusi antiterror əməliyyatı nəticəsində məhv edilib.

Qeyd olunub ki, PKK-ya 1990-cı illərdə qatılan S.Bozkır terror təşkilatının Avropadakı fəaliyyətini idarə edib. O, İraqın şimalında yerləşən Mahmur terror düşərgəsində zərərsizləşdirilib.

Aqil ABBAS
aqilabbas@rambler.ru

# TÜRKİYƏ İLƏ AZƏRBAYCANIN ARASINA GİRƏN İYLƏNİB ÇIXAR



## *(Şuşa yazılan yerə taxılan bayraqlarımız)*

**Əvvəldən də çox çalışırdılar, indi 44 günlük müharibədən qələbə ilə çıxdıqdan sonra daha fəallaşıblar. Düşmən dövlətlərin xüsusi xidmət orqanları, xüsusi xidmət orqanlarının alətə çevirdiyi mətbuat vasitələri, özəl kanallar, bu kanallarda çalışan sapı özümüzdən olan baltalar və öz içimizdən ilana ağı verən kərtənkələlər.**

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

Cavan tərbiyəçi otağa kompyüter gətirir. Çətinliklə əyilib onu yerə qoyub uşaqlardan soruşur:

**- Uşaqlar, deyin görüm, otaqda neçə kompyüter var?**

- Bir!

**- Düzdür, - tərbiyəçi çox çətinliklə ikinci sonra isə üçüncü kompyüteri gətirir:**

**- İndi neçə kompyüter oldu?**

Bu vaxt müdirə otağa gəlib soruşur:

**- Nə edirsən?**

**- Uşaqlara üçə qədər saymaq öyrədirəm!**

- Biz həmişə bunu alma ilə öyrədirik. Elə bil bunu sən də eləyə bilərdin!

- Axı kitabda kompyüter yazılıb.

**- Kitabın növbəti səhifəsində 10-a qədər saymağı avtobuslarla öyrədiblər. Ümidvaram otağa avtobus gətirməyə hazırlaşmırsan?**

# İlham Əliyev sərəncam imzaladı



**Prezident İlham Əliyev Cəlilabad, Lənkəran, Masallı və Yardımlı rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamın mətnini təqdim edirik:

**1.** Cəlilabad, Lənkəran, Masallı və Yardımlı rayonlarının əhalisi 33550 nəfər olan 12 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 12 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 840,0 (səkkiz yüz qırx) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## *Azərbaycan və Türkiyə XİN rəhbərləri arasında telefon danışığı olub*



**Xarici işlər naziri Ceyhun Bayramovla Türkiyənin xarici işlər naziri Mevlüt Çavuşoğlu arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, nazirlər bölgədə mövcud olan cari vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı fikir mübadiləsi aparıblar. Telefon danışığı zamanı, həmçinin ikirərəfli əməkdaşlıq gündəliyi üzrə müzakirələr aparılıb.

Nazirlər, eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## *Ali məktəblərdə dövlət attestasiyası ilə bağlı yenilik*

**Nazirlər Kabinetinin təsdiq etdiyi "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nda dəyişiklik edilib.**

Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Dəyişikliyə əsasən, bakalavriat səviyyəsində xüsusi qabiliyyət tələb edən ixtisaslar və əsas (baza ali) tibb təhsili ixtisasları istisna olmaqla digər bütün ixtisaslar üzrə tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə uyğun olaraq dövlət attestasiyasından keçmiş hesab olunurlar. Attestasiyanın nəticələri ilə razılaşmayan tələbələr üçün dövlət attestasiyası təşkil edilir.

Bakalavriat səviyyəsində xüsusi qabiliyyət tələb edən ixtisaslar və əsas (baza ali) tibb təhsili ixtisasları üzrə dövlət attestasiyası məcburidir və ixtisas üzrə buraxılış yekun dövlət imtahanından (fənlərarası) və ya buraxılış işinin müdafiəsindən ibarətdir. Magistratura səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş tələbələr yekun attestasiyaya buraxılırlar. Yekun attestasiya magistrlik dissertasiyasının müdafiəsindən və (və ya) ixtisas fənləri üzrə imtahanlardan ibarətdir. Magistrlik dissertasiyasının müdafiəsi ixtisaslaşdırılmış şuraların iclaslarında aparılır. Magistrlik dissertasiyasının məzmununa, yazılmasına, təqdim edilməsinə və müdafiəsinə qoyulan tələblər Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, ali təhsil müəssisəsinin Elmi Şurası və Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən müəyyənləşdirilir.

Bakalavriat və magistratura səviyyələrində imtahan sessiyalarının təşkili, tələbələrin biliyinin cari və aralıq qiymətləndirilməsi, dövlət attestasiyasının keçirilməsi qaydaları ali təhsil müəssisələri və Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən müəyyən edilir.

Eyni zamanda, "Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı"da da dəyişiklik edilib. Dəyişikliyə əsasən, Orta ixtisas təhsili proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır. Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunurlar. Təhsil müddətində əldə etdikləri nəticələrə (Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə) uyğun olaraq çıxarılmış yekun attestasiyanın nəticələri ilə razılaşmayan tələbə ixtisas üzrə buraxılış yekun dövlət imtahanında (fənlərarası) iştirak edə bilər.

İmtahan sessiyalarının təşkili, tələbələrin biliyinin cari və aralıq qiymətləndirilməsi, dövlət attestasiyasının keçirilməsi qaydaları orta ixtisas təhsili müəssisələri tərəfindən müəyyənləşdirilir.

# Baş Prokurorluq iddialara aydınlıq gətirdi

**Hadisənin baş verdiyi əraziyə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nəzarəti tam təmin olunduğundan, işğaldan azad olunduqdan sonra ora düşmən təxribat qruplarının sızması və orada mina basdırması istisna edilir.**

Bu barədə Azərbaycan Respublikası Baş Prokurorluğundan məlumat verilib.

Bildirilib ki, 04 iyun 2021-ci il tarixdə media və dövlət qurumlarının əməkdaşlarının olduğu "Kamaz" markalı sərnişin avtomobilin Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşərək 3 nəfərin ölməsi və 4 nəfərin xəsarət alması ilə faktı ilə əlaqədar Azərbaycan Respublikası Hərbi Prokurorluğunda cinayət işi başlanıb.

Bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində hadisənin baş verməsi ilə əlaqədar əsassız və dəqiqləşdirilməmiş məlumatlar yayılmaqdadır.



Odur ki, Baş Prokurorluq hadisənin baş vermə səbəbləri və mexanizmi barədə aşağıdakıları qeyd edir:

Aparılmış ilkin istintaqla müəyyən edilmişdir ki, hadisənin baş verdiyi əraziyə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nəzarəti tam təmin olunduğundan, işğaldan azad olunduqdan sonra ora düşmən təxribat qruplarının sızması və orada mina basdırması istisna edilir.

Hadisə yerinə mütəxəssislərin iştirakı ilə keçirilmiş baxış zamanı 240 x 230 sm ölçülərində 97 sm dərinliyində çuxur və 1 ədəd tam yararsız hala düşmüş "Kamaz" markalı sərnişin avtomobili aşkar olunub. Hadisənin baş vermə səbəblərinə gəldikdə isə, partlayış sahəsinin ölçülərinə və partlayış yerinin görünüşünə görə 60-97 sm dərinliyində basdırılmış tank əleyhinə 1 ədəd mina olub. Partlayış yerində minanın heç bir qalığının aşkar olunmaması ilə müəyyən edilir ki, partlayış zamanı istifadə olunan mina plastmas, parça və ya korpussuz tipli tank əleyhinə minaya aid olub, fuqas (zirehdələn) tipli, tank və zirehli texnikaların tırtılına qarşı istifadə olunmaqla yollarda və texnikaların hərəkət edə biləcəyi yerlərdə qurulması üçün nəzərdə tutulub.

Partlamış minanın tank əleyhinə TM-62P2, TM-62P3, TM-62T və ya TM-62B tipli (eyni qrupa daxil olan) mina olması və üzərindən avtobusun keçməsi nəticəsində minanın işə düşməsi (partlaması) ehtimal olunur.

Həmçinin müəyyən edilib ki, erməni qanunsuz silahlı birləşmələri işğal zamanı qeyd edilən yoldan döyüş mövqelərinin təminat yolu kimi istifadə ediblər, Kəlbəcər rayonunu tərk edən zaman isə geri çəkildikləri həmin əraziləri minalayıblar.

**Cinayət işi üzrə istintaq davam edir, gedişatı barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.**

# *Diaspor jurnalistləri beynəlxalq təşkilatlara müraciət edib*

**Xaricdə yaşayan bir qrup azərbaycanlı jurnalist Azərbaycan Dövlət İnformasiya Agentliyinin və Azərbaycan Televiziyasının işğaldan azad olunmuş ərazilərdə xidməti vəzifələrini yerinə yetirən əməkdaşları Sirac Abışov və Məhərrəm İbrahimovun iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşərək həlak olması ilə bağlı beynəlxalq ictimaiyyətə və beynəlxalq təşkilatlara müraciət edib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən Adalet.az-a verilən məlumata görə, müraciətdə deyilir:

"Media nümayəndələri müharibə bölgəsində, eləcə də müharibənin başa çatdığı ərazilərdə işləmək, tərəfsiz və obyektiv məlumat yaymaq, münaqişə zonası ilə digər tərəflər arasında körpü olmaq kimi önəmli rola malikdir.

Böyük təəssüf hissi ilə diqqətinizə çatdırırıq ki, Azərbaycan Dövlət İnformasiya Agentliyinin və Azərbaycan Televiziyasının işğaldan azad olunmuş ərazilərdə xidməti vəzifələrini yerinə yetirən əməkdaşları Sirac Abışov və Məhərrəm İbrahimov iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşərək həlak olublar.

Çəkiliş qrupunun olduğu nəqliyyat vasitəsinin hərəkət etdiyi yolda tank əleyhinə minaya düşməsi nəticəsində ümumilikdə üç nəfər həlak olub, dörd nəfər isə ağır bədən xəsarətləri alıb.

Müharibə başa çatdıqdan sonra azad olunmuş ərazilərdə 140 nəfərdən çox insan erməni işğalçılarının basdırdığı minalara düşüb və onlardan 27-si həlak olub.

Baş verən faciə göstərir ki, Ermənistan hələ də regionda məkrli siyasətini davam etdirir, işğaldan azad olunmuş Azərbaycan ərazilərində müxtəlif yollarla minalanma prosesini həyata keçirir. Beləliklə, regionda mülki şəxslərin, xidməti vəzifələrini yerinə yetirən media mənsublarının həyatı üçün ciddi təhdidlər




mövcuddur və belə bir vəziyyət biz jurnalistləri dərindən narahat edir.

Təəssüflə qeyd edirik ki, bir çox hallarda jurnalist hüquqlarının müdafiəçisi qismində çıxış edən beynəlxalq qeyri-hökumət təşkilatları, jurnalist birlikləri baş verən cinayət faktları ilə bağlı heç bir reaksiya vermir, susmaqda davam edirlər.

Beynəlxalq insan hüquqları təşkilatlarının, jurnalist birliklərinin mülki şəxslərin, o cümlədən media təmsilçilərinin fəaliyyətinə əngəl törədən, həyatlarına son qoyan belə hüquq və qanun pozuntularına etinasız qalması bütün dünyada bu cür cinayət hallarının artmasına rəvac verə bilər.

Biz xaricdə yaşayan azərbaycanlı jurnalistlər olaraq, BMT, Avropa Şurası da daxil olmaqla beynəlxalq təşkilatlara, o cümlədən, Amnesty International və Human Rights Watch insan haqları qruplarına müraciət edərək bildiririk ki, Ermənistan silahlı qüvvələri işğal etdiyi və 44 günlük müharibə nəticəsində azad olunmuş Azərbaycan ərazilərinin mina xəritələrini verməməklə və hazırda da gizli yollarla ölkə ərazisinə daxil olaraq minalanma prosesi aparmaqla humanitar norma və prinsipləri kobudcasına pozur, beynəlxalq insan haqlarını ayaqlar altına atır.

Ermənistanın bu cinayətkar əməlləri nəticəsində mülki şəxslərin, media təmsilçilərinin həyatına son qoyulduğunu bir daha diqqətə çatdırır, işğalçı dövlətdən 30 il əsarət altında

saxladığı Azərbaycan ərazilərində basdırdıqları minaların xəritələrinin açıqlanmasını və beynəlxalq qanunlarla müəyyən olunan sərhədlərimiz daxilində bu gün də həyata keçirdiyi minalanma prosesini dayandırmasını, beynəlxalq ictimaiyyətin, jurnalist təşkilatlarının baş verənlərə duyarlı olmasını tələb edirik".

**Məmməd Gülməmmədov Türkiyə Haber Global**

**Sevil Nuriyeva Türkiyə Türkmedia Grup**

**Natiq Nailəoğlu Türkiyə Real TV**

**Nigar Mahmudova Türkiyə Haber Global**

**İlhamə Qasımlı Türkiyə müstəqil jurnalist**

**Məhsəti Şərif Türkiyə müstəqil jurnalist**

**Könül Şamilqızı Türkiyə müstəqil jurnalist**

**Nigar Ögeday Türkiyə müstəqil jurnalist**

**Vüqar Abbasov Niderland connect təşkilatının rəhbəri, jurnalist**

**Xatirə Sərdarqızı Niderland Real TV**

**Tünzalə Rafiqqızı Almaniya müstəqil jurnalist**

**Fərahim Qasımov Almaniya xeber.de**

**Vahid İmanov İspaniya müstəqil jurnalist**

**Səadət Kadırova Rusiya politoloq, jurnalist**

**Şəhriyar İmanbəyli Rusiya "Vostok"media-holdinqin vitse-prezidenti**

**Xəyal Tağıyev Rusiya müstəqil jurnalist**

**Nilufər Şıxlı Rusiya Ria Novosti**

**Ramiz Məşədihəsənli Qazaxıstan Türkel Media**

**Əsli Xəlilqızı Türkiyə müstəqil jurnalist**

**Azər Cahangirov Rusiya beynəlxalq jurnalist**

**Nailə Əfəndiyeva Rusiya polska.ru saytının redaktoru**

**İdrak Abbasov Norveç İctimai Teleradio Şirkəti**

**Azər Məmmədov Gürcüstan müstəqil jurnalist**

**Hicran Əliyeva Polşa müstəqil jurnalist**

**Vahid Qazi İsveç müstəqil jurnalist**

**Müseyib Ələkbərov Rusiya news.ru saytının redaktoru**

**Oqtay Hacımusalı Türkiyə müstəqil jurnalist**

**İlkin Hüseynov Gürcüstan aktual.ge**

**Nahid Qurbanov Gürcüstan interpress.ge**

**Ülkər Fərmanqızı Türkiyə voicepress.com.tr**

# Məscidlərdə COVİD pasportunun olub-olmamasını kim yoxlayacaq?

**Məscidlərdə namaz qılmağa gələn insanların COVİD pasportunun olub-olmamasını icma üzvləri yoxlayacaq.**

Qafqaz Müsəlmanları İdarəsindən verilən məlumata görə, bütün məscidlər bununla bağlı hazırlıq işlərini həyata keçirir.

İdarədən qeyd edilib ki, COVİD-dən əvvəl də müxtəlif məsələlər zamanı dini icmanın üzvləri qapıda dayanır və gələnlərin sənədlərini yoxlayırdı. Yəni bu məsələləri həmişə icma üzvləri tənzimləyib. İndi də müvafiq icma üzvləri qapıda dayanacaq və məscidə gələn insanların pandemiya qaydalarına əməl edib-etməməsini yoxlayacaq və pandemiya ilə bağlı qaydalara riayət olunmasına nəzarət edəcək.

Qeyd edək ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, iyunun 10-dan etibarən məscidlərdə namaz qılınmasına icazə veriləcək. QMİ COVID-19 pandemiyası ilə əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri əsasında məsciddə və digər ibadət yerlərində riayət olunmalı qaydaları açıqlayıb.

Məscid və digər ibadət yerləri bədən hərarətini ölçən termometr, dezinfeksiya məhlulu və ehtiyat tibbi maska ilə təmin olunmalıdır. Bundan əlavə, hər kütləvi ibadətdən sonra ibadət yerlərində hökmən dezinfeksiya - sanitar tədbirlər həyata keçirilməli və mütəmadi havalandırma təmin edilməlidir. İbadət yerlərinə daxil olan şəxslərin COVID-19 pasportu və temperaturu yoxlanılmalı, bədən temperaturu norma daxilində olan və COVID-19 pasportuna malik olan şəxslər içəri buraxılmalıdır.

**İbadət yerlərinə daxil olan şəxslərin tibbi maska ilə təmin edilməsinə və onların sayının müvafiq normalara uyğunluğuna ciddi nəzarət edilməlidir.**

<u>*Aqil ABBAS*</u>

# TÜRKİYƏ İLƏ AZƏRBAYCANIN ARASINA GİRƏN İYLƏNİB ÇIXAR

## *(Şuşa yazılan yerə taxılan bayraqlarımız)*

***Əvvəldən də çox çalışırdılar, indi 44 günlük müharibədən qələbə ilə çıxdıqdan sonra daha fəallaşıblar. Düşmən dövlətlərin xüsusi xidmət orqanları, xüsusi xidmət orqanlarının alətə çevirdiyi mətbuat vasitələri, özəl kanallar, bu kanallarda çalışan sapı özümüzdən olan baltalar və öz içimizdən ilana ağı verən kərtənkələlər.***

***Bəli, bütün güclərini qoyublar ki, Azərbaycanla Türkiyənin arasını vursunlar. Və nəticədə həm Türkiyəni təkləsinlər, həm də bizi. İndi qəttəzə də biri çıxıb - Sədat Peker, canlı yayımlar açaraq Türkiyəni nüfuzdan salmaq üçün dəridən-qabıqdan çıxır. Kiminləsə düşmənçiliyini Türkiyə ilə düşmənçiliyə çevirir. Və son yayımlarında Azərbaycanı da hədəfə alıb. Və həm də Türkiyənin yerlə-yeksan olmuş Qarabağda bərpa işlərinə investisiya qoymaq istəyini də, yəni müharibədə qardaşlıq köməyini əsirgəmədiyi kimi, Qarabağın yenidən tikilməsində öz qardaşlıq əlini uzatmasını Azərbaycanı işğal etmək istəyi kimi sırıyır.***

***Qardaş ölkə Azərbaycan müstəqilliyini əldə edəndən sonra yanımızda olub, milyard manatlarla ölkəmizə investisiyalar yatırıb və eləcə də Azərbaycan Türkiyəyə investisiyalar yatırıb: Bakı-Tbilisi-Ceyhan neft kəməri, qaz kəməri, Bakı-Qars dəmir yolu, Türkiyədə neft emalı zavodları və sair və ilaxır. Bu o deməkdir ki, biz də Türkiyəni "işğal" etmişik.***

***Qardaş qardaşı darda qoymaz. Görünür, bunu deyənin və deyənlərin qardaşları yoxdur.***

***Atalar deyib ətlə dırnağın arasına girən iylənib çıxar. Düzdür, bu, ətlə-dırnağı bir az ağrıdar, amma sonunda bizi ağrıdanlar iylənib çıxar.***

<u>*Nicat Novruzoğlu*</u>

# Dəfndə gözüm çox çiyin axtarırdı...



**Həmkarlarımız - Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və "Azərtac"ın əməkdaşı Məhərrəm İbrahimov (Əlioğlu) xidməti vəzifələrini yerinə yetirərkən Kəlbəcər rayonunun Susuzluq kəndi istiqamətində tank əleyhinə minaya düşərək həlak oldular.**

**Siracı tanıyırdım. Amma elə dərin münasibətimiz yox idi. Məhərrəmlə isə çörək kəsmişdik, yol yoldaşı olmuşduq. İşgüzar, zəhmətkeş, istiqanlı biri idi. Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

**Xəbəri eşidəndən təxminən bir iki saat sonra yolum AZ TV tərəfə düşdü. Televiziyanın yaxınlığında Şəhidlər Xiyabanı tərəfdə hər ikisinin şəkli qoyulmuş, ətrafını gül və çiçəklə bəzəmişdilər. Hətta əklillər də vardı, ziyarətə gələnlər də... Açığı yaxınlaşmadım ora. Çünki fikrim sabah vida mərasiminə qatılmaq idi. Və hər necə olursa- olsun qatılmalı idim.**

**Bir müddətdən sonra iş otağımda sosial şəbəkəni gəzəndə gördüm ki, həmin o yerdən xeyli sayda canlı yayım açanlar, çıxış edənlər var. Tanınmış simalar idi.**

**Təxmini nə deyəcəklərini bildiyimdən izləmədim onları. Tək məni özünə çəkən bu mərasimə mətbuatımızın qoyduğu ad idi. Yazırdılar ki, "... şəhid jurnalistləri andılar" və ya "... şəhid jurnalistlərlə vidalaşdılar". Bunu anlaya bilmədim. Cənazələri artıq Kəlbəcərdən Bakıya gətirilməkdə olan şəhid jurnalistlərin şəkilləri ilə necə vidalaşmaq olar?! Şəkillərlə necə onları anmaq olar?! Axı onların cənazələri Bakıya gətirilirdi. Yenə dəfn ucqar bir kənddə olsaydı, bunu anlaya bilərdim. Amma mən bu vida və anımdan bir şey anlamadım. Bu tezliklə şəhid olmuş həmkarla vidalaşmaq olar?!**

**Səhərisi Məhərrəmgilin evinə yollandım. Bir neçə ailənin bir yerdə yaşadığı komaya... Kasıb, beli bükülmüş, rəngi getmiş, qapısı hər zaman açıq olan bu komaya. Bu yerdə Aqil Camalın bu koma ilə bağlı yazdığı statusu xatırlatmalıyam-Bütün şəhidlər bir evdən çıxır sanki...**

**Vidalaşmağa xeyli insan gəlmişdi. Mən isə Məhərrəmin həmkarlarını axtarırdım. Az sayda jurnalist var idi. Demək olar ki, gələnlərin hamısı da Məhərrəmlə dost olanlar idi. Söhbət məhz vida mərasiminə gələnlərdən gedir. Digərləri reportaj hazırlamaq üçün gəlmişdi. Və başladım yanımdakı həmkarlarıma deyinməyə.**

**Deyinməyin nə faydası. Tələm-tələsik iki portretin qarşısında görsənib mənəvi borcunu bitmiş sayanlara nə deyəsən ki?! Bütün dünyaya baş verən faciəni çatdırmaq istərkən az-çox izlənən bu tanınmış simaların nədən dəfn mərasiminə qatılmadığını anlaya bilmədim.**

**Təsəlli yaradanlarım isə Azərbaycan prezidentinin köməkçisi Hikmət Hacıyev, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, "Gündəlik Teleqraf" MMC-nin rəhbəri Aynur Camalqızı oldu.**

**Mən bu dəfndə media mənsubları ilə yanaşı tanınmış iqtisadçıları, siyasətçiləri, mədəniyyət- incəsənət xadimlərini, idmançılarımızı axtarırdım. Axı şəhid olan jurnalist idi. Sizin hər zaman yanınızda olan jurnalist! Hansı media orqanının əməkdaşı olmasından asılı olmayaraq jurnalist. Reportajı bitsə də davam edən jurnalist. ..**

**Heç vaxt ölməyəcək , Şəhid jurnalist.**



Fazil Mustafa

# Partizan qrupları yaransın, Ermənistanın daxilində...

**Bu mina məsələsinə münasibətdə bizim rəsmi təbliğatın daha doğru istiqamətdə aparılmasının vacibliyini düşünürəm. Fikrimcə, Azərbaycanın "Ermənistan minalanmış ərazilərin xəritəsini vermir" deməsi elə "Ermənistan işğal olunmuş ərazilərimizdən çıxmır" deməsi kimi bir şeydir. Yəni 30 ilə yaxın təkrarlanacaq və nəticəsi olmayacaq bir tələbdir. Necə ki, sonda savaş və diplomatiya yolu ilə düşməni ərazilərdən çıxartmaqdan başqa hansısa bir tələb, beynəlxalq təşkilatlardan hansısa bir gözlənti işə yaramadı.**

**Adalet.az xəbər verir ki, bu sözləri millət vəkili Fazil Mustafa Feysbuk səhifəsində qeyd edib.**

**Millət vəkili bu vəziyyətə uyğun maraqlı təkliflərlə çıxış edib və bildirib ki, yerli və yersiz peşəkar sakinlərdən təşkil olunan partizan qruplarının yaranmasına dövlət əngəl yaratmamalıdır:**

**"44 günlük savaşımız göstərdi ki, adsız qəhrəman olmağa hazır minlərlə oğullarımız var. Bununla belə, dövlət onların göstərəcəyi fəaliyyətin məsuliyyətini də daşımamalıdır. Bu partizan qrupları istər Qarabağda ermənilərin yaşadığı ərazilərdə, istər də Ermənistan ərazisində kütləvi şəkildə ermənilər üçün məlum üsullarla mina süfrəsi təşkil etməlidirlər. Ermənistanı və onun himayədarlarını ancaq bu yolla durdurmaq olar. Digər tərəfdən, həmin qruplar ermənilərin ərazimizə soxulan təxribat qruplarını məhv etməklə məşğul olmalıdırlar. Hər dəfə ermənilər mina partlayışının dadını gördüyündə, bizim onlar kimi sevinməyimizə gərək qalmayacaq. Biz bu kimi fəaliyyətləri rəsmi şəkildə pisləyəcəyik və bu adsız qəhrəmanlar da buna görə dövlətdən qətiyyən inciməyəcəklər. Bu zaman ruslar da fakt qarşısında qalacaqlar. Ermənistanın cavabdehlik daşımadığı qanunsuz birləşmələr varsa, o halda bizim də cavabdehlik daşımadığımız qanunsuz birləşmələr avtomatik olaraq mövcud olmalıdır. Elə işlər var ki, onu rəsmi hərbi strukturların etməsi arzuolunan deyil".**

**Deputat əlavə edib ki, eyni zamanda "erməni əsirlər"lə bağlı məsələni də gündəmə gətirmək yanlışdır:**

**"Çünki bizdə artıq erməni əsir qalmayıb, hamısı təhvil verilib. Bizdə savaşdan sonra ərazimizə soxulmuş ermənilərin terrorçu qruplaşma üzvləri var ki, onlar da qanunvericiliyə uyğun mühakimə olunmalıdır".**

---



Arif Səlimov,
Əməkdar elm xadimi,
Fizika-riyaziyyat elmləri doktoru,
professor, BDU-nun "Cəbr və həndəsə" kafedrasının müdiri

# ELMİ İCTİMAİYYƏTİN NƏZƏRİNƏ: ƏSL ELMDƏN DANIŞAQ!

**Son zamanlar ölkəmizdə anti-elm ilə məşğul olan üzdəniraq "elm" adamları sosial mediada və televizyonlarda çox "aktivləşiblər" (Məsələn, İctimai TV-də "Elmə aparan yol: gənclərin qarşısını nə kəsir?" verilişində). Qabartdıqları məsələlərdən ən əsası odur ki, güya "Web of Scince" (Clarivate Analytics) bazasına daxil olan bütün elmi jurnallarda məqalə çap elətdirmək pulludur. Bu tamam yalan məlumatdır. Məsələn, mənim və tələbələrimin "Web of Science" jurnallarında 100-ə qədər məqaləsi çap olunub və bunların heç birisinin çapı üçün pul ödənməyib. Dogrusu budur ki, bütün "Web of Science" jurnallarının yalnız 5 faizini təşkil edən bəzi jurnallar var ki, onlar pulldur, bu cür jurnallarda da iki variant var:**

***1. Bəzi "Web of Science" jurnalları "Open access" variantını təklif edir;***

***2. Bəzi "Web of Science" jurnalları isə öz səhfəsində yazır ki, məqalə çapı pulludur.***

2-ci variantda çap olunan məqalələr dünya elmi ictimaiyyəti tərəfindən müsbət qəbul olunmur, hətta bəzi ölkələrin elmi qurumları bu cür məqalələri diqqətə almır və qadağan edib. Üzdəniraq "elm" adamlarının ağızdolusu bəhs etdiyi jurnallar bu az miqdarda olan jurnallardır.

1-ci varianta daxil olan jurnallar əslində pulsuzdur, "Open access" versiyonunu da "optional" (seçimli) olaraq müəlliflərə təqdim edirlər, bunun mənası odur ki, əgər sən "Open access" versiyonunu seçmisənsə, onda jurnal sənin məqaləni dünyadakı bütün elm adamlarına on-line açır, bu versiyonu seçməyənlərin (yəni, bu jurnallarda pulsuz məqalə çap etdirənlərin) məqaləri isə açıq olmur, onları universitetlerin və elm mərkəzlərinin kitabxanalarından və ya onların jurnallara on-line bağlantılarından əldə edib oxumaq olar. Ümumiyyətlə, mən "Open access" versiyonuna da tam müsbət baxmıram. Bu versiyon Eynşteyn, Perelman çapında alimlər üçün düşünülmüşdür, çünki bu cür alimlərin nəticələri dünya alimlərinə həmən açılmalıdır. Amma bir çox psevdo-alimler buradakı iyi niyyəti, "boşluq" kimi istifadə edirlər, yüksək miqdarda pullari elmi təskilatdardan və qrantlardan bu "Open access" məqalələrinə ödətdirə bilirlər və sürətli bir şəkildə çap olunurlar.

Baxınız, yuxarıdakı söhbətimiz "Web of Scince" jurnallarının yalnız 5 faizi haqqında oldu. Bəs niyə bu üzdəniraq "alimlər" pulsuz elmi məqalə çap eləyən 95 faizlik "Web of Science" jurnallarından bəhs eləmirlər. Çünkü burada çap olunmaq onların işi deyil. Buna 1-2 misal gətirəcəm:

Bir neçə il bundan əvvəl, xarici bir ölkədə 25 illik çaışmalarımı yekunlaşdıraraq doğma vətənimizə döndüm. Ölkəmizin sayğın universitetlərindən birində "Web of Scince" məqalələri üzrə müsabiqə keçirilirdi, onun komissiyasına rəhbərlik mənə tapşırılmışdı. Müraciətlərin bitmə tarixinin son günündə akademik adını "zəbt" etmiş bir üzdəniraq "elm" adamı sekretarı tərəfindən bizim komissiyaya elm əsərlərinin siyahısını təqdim etdi, özü də mənə telefon etdi ki, mənim əsərlətimdən 100- i "Web of Science" jurnalındadır. Hətta telefonda bu şəxsi səsindən tanimadığıma görə də təəcübləndiyini də hiss etdim. Nə isə ... 100 rəqəmi mənə maraqlı gəldi, özüm kontrol etmeye qərar verdim ... kontrolun nəticəsi: 100 rəqəmi 0 rəqəmi ilə əvəz olundu;

Başqa bir misal: Daha bir "akademik" adlanan birisinin məqaləsinin "fake" (saxta təqlid) jurnalda çap olunduğunu gördük. Bizi daha çox təəcübləndirən o idi ki, dəqiq elm üzrə məqalə xaricidə bir politik jurnalın təqlidi olan saxta bir jurnalda çap olunmuşdu...

Əslində "Web of Science" jurnallarında pulsuz çap olunmaq o qədər də çətin deyil. Onəmli olan bu elmi bazanın dəqiq elmlər üzrə SCI-Exp indeksinə daxil olan jurnallarında çap olunmaqdır, bu indeksə daxil olan jurnallar 4 sinifə ayrılır (Q1 - Q4). Əsl elm adamlarından bu jurnallarda çap olunması istənir. Dünyada dəqiq elmlərin bütün nailiyyətləri bu jurnallarda çap olunur. "Web of Science"-in daha aşağı indeksleri də var:

***1. ESCI;***

***2. KCI ( Cənubi Koreya);***

***3. Russian SCI;***

***4. Sci ELO (Latın Amerika, Portuqaliya, İspaniya, Cənubi Afrika).***

Ey psevdo-alimler! Saxlayın "Web of Science" jurnallarına "ləkə" atmağı, heç olmazsa onun bu aşağı indekslərində məqalə çıxarın!

Son olaraq, onu da qeyd edim ki, ölkəmizdə "Web of Science" üzrə ən bərbad vəziyyət humanitar sahələrdədir. Bu sahələr üzrə "Web of Science"- də iki indeks var:

***1. SSCI***

***2. A&HCI***

**Demək olar ki, bu indekslərdə ölkəmiz üzrə çap olunan məqalə yox səviyyəsindədir. "Web of Science" jurnalları haqqında mənfi rəy yaratmaq istəyənlər də ən çox bu sahədə fəaliyyət göstərən bəzi üzdəniraq "alimlərdir". Bütün televizyonları və sosial medianı "zəbt" eləmiş bəzi tarixçilərimiz, son zamanlar sayı həndəsi silsilə kimi çoxalan bəzi sosialogiya üzrə alimlərimiz yetər daxili auditoriyaya yönələn və bir-birinizi təkrar edən çıxışlarınız, bu bəhs etdiyim jurnallara məqalə yazın, ölkənin elm üzrə reytinqini yüksəldin!**

---

Aqil ABBAS

# KÖY QORUCULARI

*Qardaş Türkiyə ən çox terrora məruz qalan ölkədi, xüsusilə şərq bölgəsində. PKK terrorçuları təkcə əsgər qışlaqlarına, jandarm şöbələrinə deyil, dinc əhalinin yaşadığı kəndlərə də hücum edir, onlara tabe olmayanları güllələyir, xüsusilə də tikinti-quruculuq işləri aparanları, yol çəkənləri, məktəb tikənləri öldürürlər.*

*Dostum Fazil Mustafa Kəlbəcərdə diversantlar tərəfindən törədilmiş terrorla bağlı özünün müəyyən təkliflərini irəli sürüb. Həmin yazını bugünki saytımızda və sabahkı qəzetimizdə dərc edəcəyəm deyin bu barədə danışmaq istəmirəm.*

*Mən başqa bir məsələyə toxunmaq istəyirəm. Uzun illərdir Türkiyədə PKK-nın fəallıq göstərdiyi bölgələrdə "Köy qorucuları" deyilən qruplar yaradılıb. Bu köy qorucuları rəsmi olaraq dövlət tərəfindən avtomatlarla silahlandırılıb. Bunlar nə əsgərdi, nə də jandarm. Bu köy qorucuları çobandı, müəllimdi, əkinçidi, biçinçidi və sair və ilaxır. Və mətbuatı izləsəniz tez-tez köy qorucularının da PKK ilə atışmada şəhid olduğu xəbərləri ilə rastlaşarsınız.*

*Və ən maraqlısı da budur ki, həmin bölgələrdə əsasən kürd əsilli əhali yaşayır. Və bu kürdlər PKK ilə ölüm-dirim savaşına çıxırlar öz dövlətləri naminə. Çünki çox yaxşı bilirlər ki, PKK kürd xalqını təmsil eləmir, hansısa xarici dövlətlərin və siyasi qüvvələrin maliyyələşdirdiyi və öz məqsədləri üçün istifadə etdiyi bir təşkilatdır.*

*İndi Qarabağda bərpa işləri görülür və yaxın gələcəkdə əhali öz doğma yurd-yuvalarına, kəndlərinə qayıdacaqlar. Və heç kim zamin dura bilməz ki, ermənilər diversiyalarından, terrorlarından əl çəkəcəklər. Onlar əhalini qorxu içində saxlamaq üçün hər vasitəyə əl atacaqlar. Yaxşı olar ki, qardaş ölkədən nümunə götürərək sərhədlərimiz tam bərpa olunana qədər bizdə də köy qorucuları yaradılsın. Bu həm ermənilərlə həmsərhəd olan kəndlərimizin əhalisinin əmin-amanlıqda yaşamasına, həm də sərhəd qoşunlarımıza, eləcə də Müdafiə Nazirliyimizə az-çox yardımçı olar.*

*Düzdür, Türkiyədə köy qorucuları maaş da alır, amma Birinci Qarabağ savaşında kəndlər belə təşkilatlanmışdılar, ermənilərlə dör-dör döyüşürdülər, özü də maaşsız-filansız.*

*Az-çox maaş da versək, lap gözəl olar.*

---



Səxavət Məmməd

# Dərdi çox, həmdəmi yox, gündəmi yox

***Media iki şəhid verib. Sabah üçləridi. Gündəmə bax.***

***İşlək yolda hərbi maşın minaya düşüb, açıqlama yox. Deyən olacaq ki, hər kəs bildi də bunu, nə açıqlama davası aparırsan? O açıqlamada mina partlaması, şəhid və yaralılar olması mənə lazım deyil. O açıqlamada partlayışın məhz nədən baş verməsi maraqlıdır. Çünki çalanın o qədər dərin olması adi tank əleyhinə minanın partlamasından baş verməsini sual altına qoyur (mərmi düşüb demirəm, bu versiya real deyil). Uzaqdan idarə olunan mina ehtimalı da var. Bu da qəzaya uğrayan Miq-29 deyil ki, quşları günahkar çıxarasınız.***

***Bu arada Kəlbəcərə yaylağa aparılan sürülərin videoları yayılır. Nə qədər gerçək olduğunu araşdırıram.***

***Başqa bir ölkədə jurnalist terror qurbanı olsa, media yeri yerindən oynadar. Bizim gündəm, bir əlilin gerçək və ya saxta olmasıdır. Həmkarlarımız şəhid oldu. Biz nə etdik? Ağlaşma, qəmli yazılar, fotolar, xatirələr və stop. Hesab sormaq? Məllimlərin xətirinə dəyər birdən. Yazmırsınız ki, "ilk dəqiqədən yazdım, mina təzə basdırılıb"? "İlk"də başınızdan yekə danışırsınız, o da nə isə. Yazırsınız. Bəs niyə soruşmursunuz, o terrorçular necə keçib əraziyə? Hesab sorun da. Həmkar deyilsiniz? Gündəminizdən görünür necə həmkarsınız. Əslində həm karsınız, həm korsunuz, həm də lalsınız.***

---

# Azərbaycanda "Pfizer" vaksinin istifadəsinə başlandı

**Bu gündən etibarən Azərbaycanda yeni növ koronavirus infeksiyasına qarşı peyvəndlənmə məqsədi ilə "Pfizer" vaksinin istifadəsinə başlanılıb.**




Səhiyyə Nazirliyindən verilən məlumata görə, vaksinin istifadəsinə Bakı Sağlamlıq Mərkəzində və Mərkəzi Klinik Xəstəxanasının ambulatoriyasında başlanılıb.

18 yaşından yuxarı olan və əksgöstərişləri olmayan hər bir vətəndaş peyvənd oluna bilər. Bunun üçün https://randevu.its.gov.az/ saytına daxil olaraq, "COVID-19 vaksin randevu" elektron xidmətindən istifadə etməklə koronavirus xəstəliyi əleyhinə vaksinasiya üçün onlayn qaydada növbə götürülməlidir. Bunun üçün "COVID-19 vaksin randevu" elektron xidmətində vətəndaş ilk olaraq şəxsiyyət vəsiqəsinin seriya nömrəsini və FİN kodunu daxil edib "Yoxla" düyməsinə basmalıdır. Bundan sonra, vətəndaş təqdim olunan siyahıdan peyvənd məntəqəsini, randevu tarixini və saatını seçib, mobil nömrəsini daxil etməlidir. Qeydiyyat başa çatdıqdan sonra daxil edilən mobil nömrəyə növbənin qeydə alınması ilə bağlı mesaj göndərilir. Mesajda birinci dozanın vurulacağı tarix, saat və məkan qeyd edilir.

Peyvəndin birinci dozası vurulduqdan 28 gün sonra ikinci dozanın vurulması üçün təkrar qeydiyyatdan keçməyə ehtiyac yoxdur. Çünki ilkin müraciət zamanı artıq ikinci doza üçün də eyni saat aralığına və məkana avtomatik elektron növbə verilir.

Qeyd edək ki, "Pfizer" vaksini Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən tanınıb.

**MEHRİBAN**

---

# Qazi və şəhid ailələrinə diqqət gücləndirilir

**Ağcabədi rayon İcra Hakimiyyəti tərəfindən Vətən müharibəsi qazilərinin və şəhid olmuş qəhrəmanların ailələrinin işlə təmin olunması daim diqqət mərkəzində saxlanılır. Onlar müntəzəm olaraq hər cür qayğı ilə əhatə olunurlar. Rayonun Təzəkənd kənd sakini, Vətən müharibəsi iştirakçısı, qazi Heydərov Elşad Teymur oğlu Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynovun 17 may 2021-ci il tarixli, 102 saylı sərəncamı ilə rayon icra hakimiyyətinin Təzəkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi təyin olunmuşdur.**



Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmiş şəhid Toğrul Abbasovun həyat yoldaşı Gülnarə Ramiz qızı Əzimova Hacıbədəlli kəndində Səməd Vurğun adına körpələr evi- uşaq bağçasında müvafiq işlə təmin olunub. Şəhid və qazi ailələri göstərilən yüksək diqqət və qayğıya görə ölkə rəhbərliyinə təşəkkür və minnətdarlıqlarını bildiriblər.

**Adil Misirli**

---

# Çinin qorxunc planı: Uyğur türklərinə qarşı



**Çinin doğuma nəzarət siyasəti nəticəsində Sincan əyalətinin cənubundakı Uyğur türkləri və digər etnik azlıqların doğum sayı 20 il içində 2,6-4,5 milyon azala bilər.**

**Adalet.az "Reuters"-a istinadən xəbər verir ki, bunlar Çinin uyğur türklərinə yönəlmiş bu assimilyasiya siyasəti haqqında hazırlanmış geniş hesabatında yer alıb.**

**Alman antropoloqu Adrian Zensin yayımlamazdan əvvəl "Reuters"-ə verdiyi özəl hesabatında Çinin Sincana yönəlmiş doğuma nəzarət mövzusundakı planlarıyla bağlı çinli akademiklərin və səlahiyyətli şəxslərin etdikləri əvvəlki araşdırmalar da öz əksini tapıb. Rəsmi rəqəmlər uyğurların yaşadığı Sincan əyalətindəki doğum faizinin 2017-2019-cu illər arası 48,7 faizə düşdüyünü deyir.**

**İnsan haqları qrupları, araşdırmaçılar və bəzi bölgə sakinləri bunun səbəbini uyğurlara tətbiq edilən doğum nəzarətinin gücləndirilməsi, işləyənlərin digər bölgələrə göndərilməsi və bir milyon uyğur azlığının əmək düşərgələrində həbs edilməsində görürlər.**

**Qeyd edək ki, Çinin bu siyasəti nəticəsində Sincan əyalətindəki Xan çinlilərinin sayı 8,4 faizdən 25 faizə qalxacağı gözlənilir.**

**Eminquey**

---

İlham İsmayıl

# "Ən yekə erməni diversant, təxribatçı, mina basdıran Xankəndindədir..."



**Hamı Xankəndinə gəldi, bizdən başqa. Biz o yerlərə gedə bilmədikcə, bayrağımızı qaldırmayınca dünyanın hansı dərəsində bir erməni azsa, bir də görəcəyik ki, Qarabağda peyda olub.**

Erməni diversantların Azərbaycan ərazisinə keçib təxribat törətmə cəhdləri, mina basdırmaları, sərhəddə gərginlik yaratmaları gündəlik həyatımıza çevrilib. Ordumuz, sərhədçilərimiz gücü çatdığı qədər bu təxribatların qarşısını alır. Əlbəttə, o yerdə ki, ora hərbçilərimiz nəzarət edir. Amma, dünən ermənilərin ən böyük diversantı, gec partlayan minaları basdırmaq üzrə ən böyük mütəxəssis sərhədimizi keçib və Qarabağa girib. O yerdən keçib ki, biz ora nəzarət edə bilmirik.

Laçın dəhlizini keçən ən yekə erməni diversant, təxribatçı, mina basdıran bütün ermənilərin katolikosu II Qaregin Xankəndindədir. Onu keçmiş separatçı lider Bako Saakyan və bir sürü Eçmiadzin din xadimləri müşayət edir. II Qaregini Qarabağ üzrə yepiskopla birlikdə Rusiya sülhməramlıları komandanının inanclı hərbiçilərlə iş üzrə köməkçisi Boris Qrişin ata da qarşılayıb. Təəccüblü heç nə yoxdu, fevral ayında da Qrişin erməni mərasimində ön cərgədə idi.

II Qaregin üç gün Qarabağda olacaq. O artıq bir neçə dini məbədlərə baş çəkib, bazar günü də missiyasını davam etdirib geri dönəcək. Zəngəzura, Gorusa, Şurnux kəndinə səfər edən bütün ermənilərin katolikosu II Qareginin son dayanacağı Qarabağ olub. 22 ildir ki, bu vəzifəni daşıyan 70 yaşlı II Qaregin ermənilik deyilən faşist ideologiyasının, Azərbaycan, türk düşmənçiliyinin başında dayanıb. Həmişə belə olub. Özündən əvvəlki 131 patriarx və katolikosların hamısı ermənilik deyilən antibəşəri ideologiyanın başında necə dayanıbsa, bu da elədir.

Müharibə bitəndən sonra Qarabağa Ermənistandan müxtəlif ranqda rəsmi şəxslər çox gəlib. Gələnlər hərəsi bir cür Qarabağ ermənilərinə ürək-dirək verib. Amma, katolikosun gəlişi bunların hamısından təsirlidir. O, bu gəlişi ilə sınmış, psixoloji sarsıntı keçirən Qarabağ ermənilərinə böyük təsəlli vermiş oldu. Görüşdüyü hərbiçilərə, yerli əhaliyə, rejim rəhbərlərinə- "Yaşadığımız çətin sınaqlar və qarşılaşdığımız problemlər bizi birləşdirməli, bizi daha güclü və müdrik etməlidir ki, səhvlərimizdən nəticə çıxarıb vəziyyəti ayıqca qiymətləndirək"- deyən katolikos birliyə, mübarizəyə səsləyir. Kiminlə mübarizə edəcəklər? Azərbaycan xalqı ilə, Azərbaycan dövləti ilə.

Erməni kilsəsi ASALA terror təşkilatını yaradan, xeyir-dua verən mərkəzdir. Bu kilsə Türkiyə diplomatlarının qətl edilməsinin təşkilatçısıdır. Katolikoslar isə terrora müqəddəslik donu geyindirən baş terrorçulardır. Tarixən belə olub.

Bu gedişlə hamı Xankəndinə gəldi.., bizdən başqa. Azərbaycan nə vaxt Xankəndi və ətrafına nəzarət edəcək? Bir izahat verən olacaqmı ki, biz Xankəndi və ətrafına nəzarət etmək üçün niyə iş görmürük, niyə susmuşuq? Bu susqunluq nə vaxta kimi davam edəcək? Və heç kim deməsin ki, "30 il Qarabağsız yaşamışdın, indi hara tələsirsən?". Məhz 30 ilin dərsi məcbur edir ki, bir də 30 il mina partlayışları ilə bu millət səksəkədə yaşasın. Biz sükuta qərq olduqca qareginlər, patriarxlar, yepiskoplar hər gün Qarabağ ermənisinə moizə oxuyub, ermənilik uğruna savaşa səsləyəcəklər. Hər cür təxribatın, özü də artıq sərhəddə deyil, Qarabağda şahidi olacağıq. Sarsıntı keçirən toplum katolikosun çağırışları ilə dirçəlməyə çalışacaq. Zaman bizim xeyrimizə işləməyə bilər.

**Belə getsə II Qareginin bu üç gündə basdırdığı minaların hansısa formada partlamasını çox gözləməyəcəyik.**

**moderator.az**

---

# Pakistanda iki qatar toqquşdu - Ölü sayı artır



**Bugün Pakistanın cənubunda iki qatarın toqquşması nəticəsində 30-dan çox insan həyatını itirib.**

Adalet.az "Geo News"a istinadən xəbər verir ki, qəzadan sonra ən azı 30 cəsəd əraziyə yaxın xəstəxanaların morqlarına təhvil verilib. Bunu bölgə bolisi kanala açıqlamasında bildirib.

Həmçinin bildirilib ki, Pakistanın Sind əyalətindəki qəzadan saatlar keçməsinə baxmayaraq, xilasedicilər hələ də əzilmiş vaqonların içinə girməyi bacara bilməyiblər. Ölü sayının artması isə qaçılmazdır.

# ABŞ Dövlət katibi: Çinlə münasibətlər çox çətindir



**ABŞ heç bir ölkə ilə silahlanma yarışına girmək istəmirik.**

Adalet.az-ın məlumatına görə, bunu ABŞ Dövlət katibi Entoni Blinken deyib.

O bildirib ki, biz nə Pekinlə, nə də başqa kimsə ilə silahlanma yarışında iştirak etmək istəyirik. Biz Çinlə çox sərt rəqabətdəyik. Çinlə münasibətlər çox çətindir və hər şeydən vacibdir.

**Eminquey**

# Ömrün son payızı

**O, insanları çox sevirdi. İnsanı sevən, Vətəni, yurdu, el-obanı sevər. Vətən sevgisi olmadan həqiqi vətəndaş olmaq çətindir. Torpaq bizə dağ-daş kimi görünür. Lakin onu qoruyanda, təəssübünü çəkəndə Vətənə dönür.**

Bəs görəsən haradan başlanır Vətən? Ana bətnindən, evimizdən, elimizdən, yurdumuzun tarixindən, müqəddəs ruhumuzdan başlanır Vətən. Vətən qoruduğumuz sərhəddən, məmləkətin bayrağından, azadlığımızdan başlanır...

Elnurun Vətən sevgisi özünü həqiqi hərbi xidmət dövründə, sonra da Qarabağ müharibəsində daha qabarıq göstərdi. Vətənin qəhrəman övladı kimi könüllü olaraq orduya getdi. Vətən sevgisini öz qanı, canı bahasına daha da artırdı. O, Vətəni öz canından artıq istəyən minlərlə cəngavərə, cəsur əsgərə qoşuldu. Canını fəda etdi, qanından keçdi, yağı düşmənin yediyini burnundan gətirdi, onu elə günə qoydu ki, bir də bu yerlərə üz tuta bilməsin...

Elnur Cəlal oğlu Dadiyev 1998-ci ilin mart ayında Buruq kəndində təvəllüd tapmışdır. O ailənin ikinci övladı idi. Ailəsi Bakıxanov qəsəbəsinə köçmüşdü. Sonra isə Balaxanıda



məskunlaşdılar. O, 14 saylı Bakı Peşə Liseyini uğurla bitirmişdir. Bir ilə yaxın ixtisası üzrə işləmiş, yaxşı işi ilə adamların rəğbətini qazanmışdır.

2016-cı ildə Lerik Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılaraq Milli Orduda xidmət etmişdir. Əsgərlik dövründə nümunəvi intizamı ilə seçilmiş, daim öyrənməyə çalışmışdır. Ordudan tərxis olunduqdan sonra istehsalat sahəsində çalışmışdır.

2020-ci ilin sentyabr ayı idi. Elnur qismən səfərbərliyə alınaraq Ordu sıralarına çağırıldı. O təcrübəli bir əsgər kimi Ordunun qayda-qanunlarını yaxşı bildiyi üçün ona rabitəçi-kəşfiyyatçı olmağı etibar edirlər. Elnur Dadiyevin cəbhə həyatı başlayır.

Altı gündən sonra Vətən müharibəsi alovlanır. Füzuli və Xocavənd istiqamətində gedən şiddətli döyüşlərdə cəsur və qorxmaz bir əsgər kimi tanınır. Komandirlərin əmr və tapşırıqlarını sözsüz yerinə yetirir. İşğal altındakı ərazilər azad olunduqca Elnur və onun səngər yoldaşları sevinir, qələbəyə inanırdılar.

**Döyüşçü dostu olmuş Elvin Nəhmətov (o, Yardımlı rayonundandır) müharibədə cəsur əsgər kimi seçilən Elnur Dadiyev haqqında belə deyir:**

***- Elnur vətənpərvər bir qardaş idi. Vətən torpağını canından çox sevirdi. O, düşmənə nifrətini öz hünəri, bacarığı, əlindəki silahı ilə bildirirdi. Hər bir kənd, qəsəbə düşməndən geri alındıqca sevincini gizlədə bilmirdi. Şəhid olmamışdan qabaq deyirdi: Düşmənin "məğlubedilməz"liyi bu imiş? Düşmən Ordumuzun qüdrətini, əsgərlərimizin rəşadətini görüb qaçmaqdan başqa çarəsi qalmayıb. Düşmənin iradəsini qırmışıq, onu dizini yerə qoymuşuq, çox keçməz ki, təslim olub ağ bayraq qaldıracaqlar"...***

Yüksək əhval-ruhiyyə içində idi Elnur. O, telefonla danışarkən evdəkilərə narahat olmamağı tapşırmışdı. Elnurun qardaşı Novruz o ağır günləri xatırlayaraq deyir:

***- Bir dəfə qəfildən mənə zəng gəldi. Səksəkə içində danışmaq üçün telefonun düyməsini sıxdım. Bu zaman Elnurun gür səsini eşitdim: "Qardaş, Füzulidən sənə salam deyirəm. Buralar çox gözəldi. Ancaq düşmən hər yeri dağıdıb, vəhşi olduğu göz qabağındadır. Mən yəqin bu dəfə sənə başqa azad etdiyimiz torpaqlardan müjdə verəcəyəm, qardaşım. Sən fəxrlə deyəcəksən: "Mənim qardaşım Qarabağı azad edən, otuz illik həsrətə son qoyan oğullardandır..."***

**Novruz sözünə davam edərək deyir:**

***- Mən qardaşımın səsini bir daha eşidə bilmədim. O son zəng əbədi olaraq yaddaşımda qalacaq. Yəqin indi onun ruhu I Qarabağ savaşında şəhid olmuş həmkəndlisi Telman İsmayılovun ruhuna qovuşub.***

Elnur evdən son kərə çıxanda dağlara, dərələrə, meşələrə baxıb üzünü anası Yeganə xanıma tutaraq dedi:

***- Ana, gəlin sağollaşaq. Bizi qarşıda çətin günlər gözləyir. Allahın əmanətində olun, mən gedirəm, bəlkə də bizi ayrılıq gözləyir. Inşallah, düşməni məğlub edib Qələbə ilə qayıdacağam...***

Bu səs Vətəni azad etməyə gedən bir cəngavərin səsi idi. Zəfərdən müjdə verən şəhidin əbədiyyətə ucalan səsi idi. Oğlundan bu sözləri eşitmək, onun qəlbinin səsini duymaq nə böyük məna kəsb edirmiş. Heç inana bilməzdi ki, Elnurun səsinə əbədi olaraq həsrət qalacaq, oğlunun adı isə əbədi olaraq yaddaşlarda qalacaq...

**Lerik şəhərində yaşayan əmisi oğlu İlham Dadiyev deyir:**

***- Elnur gözlərimin önündə böyüyüb, ətə-qana dolub. Vətən müharibəsinə könüllü gedərək, ən uca zirvəyə çatanlardan biridir. O, minlərlə gəncə qoşularaq, döyüşə yollandı. Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı düşmənin müxtəlif istiqamətlərdən hücumunun qarşısını aldı. Vətən müharibəsində iştirak etmək, illərlə gözlənilən Qələbəni tezləşdirmək istəyirdi Elnur. O, bu Qələbəni görməsə də müqəddəs bir yurda şəhid kimi döndü. Bizim tayfaya, el-obaya başucalığı gətirdi, Vətənin azadlığı yolunda bir əbədi heykələ döndü...***

**Əsgər yoldaşı Elvin Nəhmətov** Elnurun cəbhədə göstərdiyi qəhrəmanlığının canlı şahididir. Onun gözləri qarşısında neçə-neçə cavan əsgər şəhid oldu. Onların hər biri Vətənin dayağı, qəhrəman idi, tariximizin şərəf səhifəsinin müəlliflərindəndir. Elnur Qələbə ilə evə dönmək istəyirdi. Arzuladığı gün yoxluğundan sonra gəldi. Bu şərəfli bir qismət idi. Onu döyüşdən-döyüşə aparan qələbəyə böyük inamı idi.

**Şəhid Elnur Dadiyev zaman keçsə də unudulmayacaq, ona hamı layiq olduğu dəyəri verəcək, onu qəhrəman kimi xatırlayacaqlar. Elnurun təltif olunduğu "Vətən uğrunda" və "Xocavəndin azad edilməsinə görə" medalları qələbənin işığında həmişə parlayacaq...**

**İdris Şükürlü**

# Yaza bilmədiyim yazı...

## Yaxud xalq artisti Arif Quliyevin gülüşü

**...Ən yaxın dostlarım haqqında ya yazı qələmə ala bilmirəm, ya da yazsam çox çətinliklə nəyisə deməyi bacarıram. Bilmirəm, bu nədəndi, amma bildiyim odur ki, ürəyimə, qəlbimə yaxın olan insanlar barəsində yazı qələmə almaq, söz demək mənim üçün çox çətindi. Ən azından ona görə ki, onlarla mənim aramda olan isti münasibəti, səmimiyyəti və dostluğu sözlə ifadə etmək elə də asan deyil...**

Mənim yaxın qohumum, Seyid Əli Ağanın oğlu Seyid Əbdülrəhimə bugünlərdə zəng eləmişdim. Çünki o böyük qardaş kimi həmişə mənim yanımda olub, ağrıma, acıma, dərdimə şərik çıxıb. O qədər insanlara əl tutub yaxşılıq edib ki, birini də dilinə gətirməyib. Kişinin oğlu Seyid övladıdır. Ona görə də bu ağayanalıq və mərdlik onlarda həmişə olub və olacaq. Ən azından ona görə ki, bu ocaq Bəhmənlidə bir ziyarət yeri olub və camaat bu gün də o ocağa nəzir, niyaz verir.

### *Telefonla danışığımızda*

***Seyid Əbdülrəhim mənə dedi ki, səndən incimişəm. Sözün açığı heç vaxt mənə belə bir söz deməyib. Kimdən incisə də, küssə də dilinə qətiyyət gətirən deyil. O, bu sözü deyəndə mən çox təəccübləndim. Dedim görəsən hansı günah eləmişəm ki, Seyidin qəlbinə dəyib. Telefonda duruxduğumu görüb elə özü də fikrini davam etdirdi. Dedi ki, hər gün yazılarını izləyirəm. Amma yaxın dostun Arif Quliyevlə bağlı yazın gözümə dəymir. Həmişə də səbirsizliklə gözləyirəm ki, o yazı nə vaxt çıxacaq. Axı sən rəhmətlik Arif Quliyevlə çox yaxın dost olmusan. Üstəlik də, xeyirdə-şərdə həmişə yanınızda olub. Elə buna görə də sözün açığı səndən incimişəm.***

Təbii ki, Seyidin iradı haqlı idi. Mən əsl həqiqəti ona çatdırdım. Bildirdim ki, elə bilmə Arifin dünyasını dəyişməyi mənim qəlbimi ağrıtmayıb. Sadəcə olaraq mən dəfələrlə çalışmışam yazı qələmə alım, amma o yazını yaza bilməmişəm. Bu, birinci dəfə deyil, bir neçə dostum barəsində də yazmaq istəmişəm, alınmayıb. Hardasa illər ötəndən sonra o yazı dünyaya gəlib və mənim dostlarımı, yaxınlarımı sevindirib. Bu sözləri deyəndən sonra cəddinə qurban olduğum Seyid Əbdülrəhim mənimlə razılaşdı. Dedim ki, çalışaram tezliklə o yazını oxuculara çatdırım. Mən istəmirəm ki, hər hansı yazı çiy olsun və həmin dostun səviyyəsindən aşağıda dursun və həmişə çalışmışam ki, nə yazsam, ürəkdən yazım və qəlbimin səsini eşidim...

Mənə görə Arif Quliyev dünyanın ən təmiz, ən saf və ən böyük ürəyi olan insanlardan biri idi. Onun necə bir ürək sahibi olduğunun dəfələrlə şahidi olmuşam. Arif Quliyevlə mənim dostluğumun əsası 1975-ci ildə qoyulub. Bizi istedadlı şair, mənim qohumum Vaqif Bəhmənli tanış edib və bu tanışlıq bizim ailəvi dostluğumuza, yoldaşlığımıza təkan verib...

Vaqif Bəhmənlinin toyu idi. Heç yadımdan çıxmır. Arif Quliyev dedi ki, gərək ona bir hədiyyə alım. Şəhəri altını üstünə çevirdi. Çox orijinal bir hədiyyə tapdı. O hədiyyənin adını demirəm ki, onu bir Allah bilir, bir Arif Quliyev, bir Vaqif Bəhmənli, bir də mən. Söhbət hədiyyədən getmir ey, söhbət diqqətdən gedir. Arif Quliyev kimsəsizlər, yetim evində böyüyüb və Vaqif Bəhmənli də atasını 37 yaşında itirib. Yəni bu adam bilirdi ki, kimsəsiz, yetim olmaq nə deməkdir. Özü o dərdi, kədəri yaşadığına görə yetim uşaqların da dərdini, kədərini hamıdan yaxşı bilirdi. O yaxşı bilirdi ki, atasızlıq nə deməkdir... O yaxşı bilirdi ki, yetimçiliyin ağrı-acısı necə olur... O yaxşı bilirdi ki, yetimin saçına sığal çəkəndə, qəlbini sevindirəndə Allaha çox xoş gedir...



Arif Quliyevin nə dayısı olmuşdu, nə əmisi olmuşdu, nə də arxalı qohum-əqrəbası. Və Arif Quliyev o zirvəyə öz istedadı, zəhməti, alın təri ilə yüksəlmişdi. O zirvəyə yüksəldikcə bir qədər də sadələşir, bir qədər də adiləşir, bir qədər də səmimi olurdu. Mən inanmıram ki, onun kimdənsə ayrı sirri olsun. O istəsəydi 5-6 evi-eşiyi, neçə maşını, varı-dövləti olardı. Amma bunların heç birini arzulamırdı. 70-ci illərdə Yasamalda aldığı 3 otaqlı mənzildə yaşayırdı. Elə o 3 otaqlı mənzildən də Allahın dərgahına yola düşdü, haqqa qovuşdu...

### *...Dünyanın yaxşı vaxtında*

Arif Quliyev Zaqatalaya, Qaxa gedərdi. Aydındır ki, Zaqatalada da, Qaxda da yaxşı qoz-fındıq olardı. Onun maşınının yük yerinə 2-3 kisə qoz-fındıq qoyurdular. Kim olsaydı bu payın hamısını evinə-eşiyinə aparardı. Mən gördüyümün şahidiyəm. O qozun, fındığın çoxunu aktyor dostlarına, imkansız və ehtiyacı olan adamlara paylayırdı və axırda özünə də 2-3 kilo saxlayardı. Bunu elə bilirsiz hər adam edər? Bunu ancaq ürəyi dünya boyda olan insanlar edər. Allah-Təala Arif Quliyevə böyük istedadla yanaşı, böyük ürək bəxş etmişdi.

***Mən onda "28 Aprel" kinoteatrın arxasında kirayəşin qalırdım. Bir də görürdüm ki, Arif Quliyev həyat yoldaşı Gülzar xanımla bizə gəlib. Özü də əli dolu. Gəlib həyətdə oturardı, qonşular yığışardı onun başına. Arif də o ki var qonşularımı güldürərdi, hamı uğunub gedərdi, heç bizdə çörək də yeməzdi. Bir stəkan çay içərdi və çıxıb gedərdi. Hətta mən tələbə olanda beşmərtəbənin yanında bir Durna xala var idi. Gəlib məni tapar, götürüb aparardı onlara ki, tələbə adamsan, dur, gedək Durna xalagilə, yaxşı plov dəmləyib. Gedirdik Durna xalagilə, o dadlı plovu yeyirdik. Sonra da Durna xalaya deyirdi ki, bir pay da düzəlt aparsın evə. Tələbə adamdı, bir də belə plovu harda görəcək. Durna xala da təzədən böyük bir qaba plov çəkər və mənə verərdi. Mən də gətirib otaq yoldaşım, əslən Masallıdan olan Xanoğlanla plovu doyunca yeyərdik.***

O dostluğa, çörəyə, yoldaşlığa çox sadiq adam idi. Allah ölənlərinizə rəhmət eləsin, atam 1986-cı il sentyabrın 25-də rəhmətə getmişdi. Gözlədiyim dostlarım və xeyirinə-şərinə yaradığım adamlar o yasa gəlmədi, amma bir də gördüm Arif Quliyev Füzuli rayonunun hakimi, mənim qohumum Məmməd Kərimovla və bir aktrisa xanım ilə bizə gəldilər. Maşından düşüb boynumu qucaqladı və hönkür-hönkür ağladı. Onun gəlişi elə bil mənim dağ boyda dərdimi balacalaşdırdı və bir anlıq o dərdi hiss eləmədim. Bax, Arif Quliyev dostluğa, yoldaşlığa belə sədaqətli insan olub.

Bir hadisə də rəhmətlik qardaşım xəstəxanada olarkən baş verib. O, "Ədalət" qəzetinə gəlib məni soruşub. Deyiblər ki, qardaşı ağır xəstədi. "Kasparda" bu gün əməliyyat olunur. Bütün qohum-əqrəba dəhlizdə durub əməliyyatın nəticəsini gözləyirdi. Hələ qardaşım əməliyyata girməmişdi. Bir də gördüm ki, Arif Quliyev gəldi. Mənlə öpüşdü, görüşdü, sonra qardaşımı ziyarət elədi. Orda elə bir aura yaratdı ki, heç narkoz belə qardaşımı sakitləşdirməmişdi. Qardaşım gülə-gülə əməliyyata girdi və gülə-gülə də çıxdı. Arif Quliyev mənim qohum-əqrəbamla bir yerdə əməliyyatın nəticəsini gözləyib sonra getdi. Bax, o belə bir dost idi, o belə bir insan idi. Heç bu cür insanı unutmaqmı olar. Mənim fikrimcə, onun İnsanlığı, Adamlığı sənətindən də yüksək idi. Bunu yəqin onu tanıyanlar daha yaxşı bilir. Çünki Arif sonuncu tikəsini də hamı ilə bölməyi bacarırdı.

### *Ötən əsrin 70-ci illərində*

onun qədər ancaq Siyavuş Aslan, Nəsibə Zeynalova, Hacıbaba Bağırov, Yaşar Nuriyev sevilirdi. Arif Quliyev bu sənətkarlardan sonra milyonların məhəbbətini qazanan bir gülüş ustası idi. Elə onu görən adam uğunub özündən gedərdi. Hələ danışmağını, obraza girməyini demirəm. Bizim rejissorlar Arif Quliyevdən istifadə edə bilmədilər. Xüsusən də, kino rejissorları onun istedadını üzə çıxarmağı bacarmadı. Bu paxıllıqdan idimi, ya səhlənkarlıqdan deyə bilmərəm. Bildiyim odur ki, o çox böyük gülüş ustası idi. Aktyoru yetişdirən dramaturq və rejissordur. Bizdə də son vaxtlar bu sahədə bir axsama var. Və bu axsama da istər-istəməz istedadlı sənət adamlarının kölgədə qalmasına gətirib çıxarır. Bir dəfə istedadlı yazıçı Arif Quliyevə irad tutdu ki, yaxşı rollar oynamırsan. O da dedi ki, istedadlı yazıçısan, bir tamaşa yaz, ssenani yaz, çəkilim. Tənbəllik edib yazmaq istəmirsiz. Bəs onda biz aktyorlar quru yurdda nə edə bilərik? Arif Quliyev tamamilə haqlı idi. Yaxşı dramaturji material, yaxşı rejissor olmadan heç vaxt istedadlı aktyor yetişməz. Amma Arif Quliyev istedadlı aktyor idi və öz istedadı ilə də Azərbaycan teatr və kino sənətində iz qoymağı bacardı.

***Elə bilirsiz ki, Arif Quliyev kimi aktyoru zaman həmişə yetişdirəcək. Xeyr! Bu cür aktyorlar çox nadir halda sənətə gəlir. Amma sadəcə olaraq bu nadir aktyorların qədri bilinmədiyinə görə onların istedadı tamamilə üzə çıxmır. Mən də düşünürəm ki, Arif Quliyev Azərbaycan teatr sənətinə və eləcə də kinosuna çox obrazlar bəxş edə bilərdi. Amma bu obrazlar rejissorlar tərəfindən ona verilmədi və o da istedadını götürüb apardı Allahın dərgahına.***

### *Onun ürəyində*

elə bir dərd, kədər var idi ki, üzü gülsə də qəlbi heç vaxt gülmürdü. Bu dərd atasızlıq idi, anasızlıq idi. Və ən nəhayət kimsəsizlik idi. Sonra da oğul itkisi. Arif Quliyev bu dərdi heç kimə bildirməzdi. O dərdini bölüşməyən adam idi. Ancaq sevincini heç kimdən əsirgəməzdi. Özünü elə aparardı ki, guya dünyanın ən dərdsiz, ən xoşbəxt adamı idi. Üzdən belə görünürdü ha! Amma ürəyinə yaxın olanda ondan böyük dərdli adam yox idi. Ancaq bu dərdli adam bir dəfə də olsun kiməsə bir kəlmə dərdindən danışmadı. Elə sal qaya kimi, uca dağ kimi o dərdin qarşısında durdu, sevə-sevə yaşadı və sevə-sevə də apardı Ulu Yaradanın yanına.

**Bir dəfə 5 mərtəbənin qarşısında Arif Quliyevlə və xalq artisti Əliağa Ağayevlə rastlaşdıq. Əliağa Ağayev ona baxdı və dedi ki, elə bildim urus balasısan. Axı Arif Quliyevin gözləri göy idi. O göy gözlər mavi dənizə bənzəyirdi. O mavi dəniz ki, heç vaxt ucu-bucağı görünmür və baxdıqca gözün ənginliklərdə itir. Bax, Arif Quliyev də belə bir istedad sahibi, belə bir insan idi. Mavi dəniz kimi baxdıqca, tamaşa etdikcə elə hey bizdən uzaqlaşırdı. Bizdən uzaqlaşan Arif Quliyev Allahın dərgahındadı. Allah o dünyasını versin!...**

**Faiq QİSMƏTOĞLU**

# İntihar edən adamla MÜSAHİBƏ

***Dünyadan köçmüş "X" adlı şəxs Adalet.az saytına müsahibə verib.***

**- Gəlin, elə ilk növbədə hadisədən- intiharınızdan danışaq. Necə oldu, niyə oldu?**

- Düzü, necə olduğunu tam özüm də bilmirəm. Bir də ayıldım ki, ölmüşəm... Binanın başında idim, istəmirdim o qədər də. İçimdə məni xilas eləsinlər deyə bir hiss var idi, nə yalan deyim, amma bir anlıq hər şeyi unutdum, özümü atdım...

**- Hazırda hardasınız, oralarda abu-hava nə yerdədir? Bizə bu haqda məlumat verə bilərsinizmi?**

- Gəlin, bu məsələdən yan keçək. Bu haqda danışmaq istəmirəm. Zəhmət çəkib, öləndə özünüz görərsiniz. İstəyirəm ki, sirli qalsın.

**- İntihar edən insanlaedir, sizdə olmuşdu belə bir hal?**

- Bəli, olmuşdu. Düz üç dəfə. Birində biləyimi kəsdim, ikinci də dərman atdım, üçüncü də isə özümü asdım.

Özümü asanda konkret öləcəkdim, son anda otağa girdilər. Amma özüm də qurtulmağa çalışırdım.

Dırnaqlarımın arası ipin saçaqları ilə dolmuşdu. Digərlərində də tez görüb xəstəxanaya aparıblar. Nə yaşamağa imkan verirdilər, nə də ölməyə.... *(gülür)*

**- Həqiqətənmi intihar çıxış yoludur? Bəlkə səbr etsəniz, dözsəniz nəsə olardı?**

- İntihar canını qurtarmaqdır, amma çıxış yolu deyil. İntiharı beyninə qoyan adam üçün başqa çıxış yolu da maraqlı deyil. Çünki o, buna qədər bütün çıxış yollarını sınayıb. Ya ona bir yol buraxmayıblar, ya da tapdığı yolda imkan verməyiblər. Yolun ucunda da intihar durub, onu çağırıb. Yeri gəlmişkən, belə davam edin, mənim cinsiyyətimi bildirməyin. Qadın, yoxsa kişi olduğumu bilməyini istəmirəm bunu oxuyanların...



**- İntihar səbəbini danışmaq istəyirsiniz? Ağır deyil sizin üçün?**

- Ölümdən ağır nəsə var? Səbəbi isə danışmayaq. Nəticə əsasdır, o da ölmüşəm. Daha bundan artıq nə? Ümumi bir səbəb düşünün. Onsuz da elə cəmiyyətdə səbəblər aşağı-yuxarı eynidir. Sıxıntılar, başa düşülməmək, sevilməmək nələr var nələr.

**- Amma yenə də ümumi bir səbəb olmalıdır axı...**

- Ümumi səbəb deyəndəki, hamıda necə, məndə də elə. Məişət, cəmiyyət, ailə, dostlar, sevgi, bir də şəxsi, özümlə qəbrə apardığım nələrsə. Onları da həll edə, deyə bilsəm, daha niyə ölürdüm ki? Hər şey üst-üstə gəlir.

**- Sizcə, intihar cəsarətdir, yoxsa axmaqlıq?**

- Qətiyyən. Belə olsa da, belə demək olmaz. Siz demiş, bir az səbrli olmaq, dözmək lazımdır. Məndə alınmadı. Mən intihar edəndən sonra çoxlu mənasız şeylər üstündə intihar etmiş adamlar gördüm. Pul borcu, sevgilisindən ayrılan, evdə kiçik davaları olan və sairə və ilaxır. Nə cür desən, ölən var. Adamın lap yazığı gəlir. İntihar sadəcə, anlıq bir şeydir. O ərəfədə o qədər peşiman olursan ki. Mən artıq hər şeydən bezmiş, itirəcək heç nəyi olmayan biri idim. Ona görə də mənim üçün elə də bir problem yox idi. Mənim üçün bir az cəsarət idi. Axmaqlıqdan edən də var.

**- Əgər sizdən bu müsahibəni alandan sonra intihar etsəm mənə nə deyərdiniz?**

- Yəqin ki, söyərdim. Belə siz özünüz qıraqdan xoşbəxt görünürsünüz. Deyəsən, içinizlə danışırsınız.

**- Bəlkə elə siz mənim içimsiniz?**

- Nə deyim. Amma siz intihar etməyin. Ən azından yaza, danışa bilirsiniz.

**- Çoxmu peşmansınız?**

- Vallah, nə deyim? Guya desəm peşimanam, nə dəyişəcək? İtirəcəyim heç nə yoxdur dedim, amma var idi. Ailəm var idi.

Sadəcə, onları da nəzərə almayacaq qədər hissizləşmişdim. Nə dost, nə sevgi.

Hər şey bitdi, hər şey itdi mənimlə, qarışdı torpağa. Amma etiraf edim ki, yaşamaq istəyərdim. O vaxt düşünürdüm ki,i həyat çox gözəldir, yaşamağa dəyməz, amma indi belə düşünmürəm.

Sadəcə, mövcud durumla barışmışam. Mənim yolum yoxdur, amma sizlərin var. Həyatınızı xilas edin, sizi bu cür öldürəcək şeylərin üstünə çox da getməyin. Onsuz da öləcəksiniz, niyə tezləşdirirsiniz, hara tələsirsiniz?

**- Müsahibə üçün təşəkkür edirik. Allah sizə rəhmət eləsin.**

- Mən təşəkkür edirəm, heç olmasa, ölü ikən dindirildim, söz haqqı tanındı. Demək istədiyim çox şey var, amma indi susmaq məqamıdır, susuram. Allah sizlərə də rəhmət eləsin, dirilər, çox yaşayın.

**Söhbətləşdi;**
**Orxan Saffari**

### *Kiyev: ABŞ Rusiyanın silahına güllə qoydu*



**ABŞ-ın son addımları ukraynalıların Vaşinqtonun sarsılmaz dəstəyinə əminliyini zəiflədir.**

**Bunu Ukrayna Prezidenti Vladimir Zelenski deyib.**

**"Ukrayna ABŞ-ın "Şimal axını 2"-yə sanksiya tətbiqindən imtina etməsindən çox təəccüblənib", - deyə o bildirib.**

**Zelenski bu qərarı mətbuatdan öyrənməsinin onu daha çox təəccübləndirdiyini deyib:**

**"Bu kəmər Rusiyanın əlində silahdır. Gözləmirdim ki, bu silaha gülləni ABŞ kimi böyük ölkə qoyacaq. Vaşinqtonun qərarı Ukraynaya dəstəyə yönəlməyib. Yalnız ABŞ bu kəməri dayandırmaq gücündədir".**

**MEHRİBAN**

# MAKEDONİYALI İSGƏNDƏRİN SİRLİ ADI



*Həsən Əliyev*
*Politoloq, sosioloq*
*E-mail: aliyevhasan@gmail.com*

**Fəxr edici haldır ki,Böyük Fateh Makedoniyalı İsgəndərin xatirəsinə həsr olunmuş məqalənin süjet xətti, bu gün Azərbaycan Respublikasının Prezidenti,Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyy altında Müzəffər Ordumuzun 44 günlük Qarabağ müharibəsindəki fatehlik qələbəsi ilə üst-üstə düşür.Məhz bu qələbə, Böyük Fatehin döyüş tarixinin müasir dövrdəki əks-sədasıdır.**

Müasir dövrdə 30 ilə yaxındır ki,Yunanıstan ilə Makedoniya dövlətləri arasında "makedoniya" adı ilə bağlı mübahisələr yaranmışdır.Yunanıstan dövləti Böyük İsgəndərin yunanlı olduğunu və ərazisində Makedoniya əyalətinin mövcudluğunu əsas gətirərək,eyni zamanda "makedoniya" adının qonşu dövlət olan Makedoniya Respublikasının daşıdığına siyasi qısqanclıq göstərərək, bu dövlətin adının dəyişdirilməsini tələb edirdi.Bu məsələ ilə əlaqədar 2018-ci ilin iyun ayında Yunanıstan və Makedoniya arasında Prespa müqaviləsi imzalanmışdır.Müqaviləyə əsasən hər iki tərəfin maraqlarına uyğun olaraq, 2019-cu ilin 12 fevral tarixindən Makedoniya adı müqavilədə irəli sürülmüş "yuxarı","şimali"və "yeni" variantlardan "şimali" variantı seçilərək, Makedoniya dövlətinin adı Şimali Makedoniya Respublikası ilə əvəz olunmuşdur.

Əgər biz Makedoniya dövlətinin əhalisinin tərkib hissəsinə diqqət yetirsək, onun 65%-dən çoxunun slavyan mənşəli xalq olduğunu görərik.Bu iki xalq qonşu olsalar da, eyni ailə dil qrupuna daxil deyildirlər.Yunan dilindən fərqli olaraq, Makedoniya xalqının dili slavyan dil qrupuna daxildir.Hətta Rus xalqının dili də, Makedoniyanın Solun dil qrupuna aid edilir.Həqiqətən bu gün ruslar serb xalqlarını özlərinin əcdadları və qohumları kimi qəbul edirlər.Onların dillərinin eyni kökdən olması buna əyani sübutdur.Rus xalqının "solun" qrupuna aid edilməsi tayfanın inancı olan "günəş tanrısı"nın adından, "solnse" məfhumundan yaranmışdır.Qədim Oğuz tayfalarında da Hun və Xan məfhumları onların "günəş tanrısı" olan "gün"ün adındandır. Bəzi türk xalqlarında "x" hərfinin tələffüzü olmadığından bu samit "h" samiti ilə əvəz olunmuşdur.Bəzi tarixçilər dil hadisəsini araşdıra bilmədikləri üçün, çox vaxt Hunları Xunlardan(xanlıqlar) ayrı hesab edirlər.Orta Asiya xalqlarının yerli şivələrində bəzən də "x" samiti ifrat dərəcədə "ç,k,j" samitləri ilə əvəzlənərək "kan","jun","çin" kimi işlənmişdir."Çin" məfhumu da bu qəbildəndir."Çin" məfhumu ingilis dilində "China" kimi tələffüz olunur.Günəş məfhumununa mənsub olan "parıltı" məfhumu isə "şhine" kimi tərcümə olunur. Bütün dillərdə olduğu kimi bu məfhumda da "ç-ş" yerdəyişməsi özünü göstərmişdir.Dilçilikdə olan paralelizm tətbiqindən aydın olur ki,həqiqətən də "çin" məfhumu da qədim türklərin "gün" sözündən yaranmışdır."China" sözü ingilis dilinə keçmə sözdür.

### Tarix və dilçilik

***araşdırmalarından görünür ki,həqiqətən də dövlətlərin adları qonşu xalqlar tərəfindən verilə bilir.Yunanıstan dövlətinin adı da, Çin dövlətinin adı kimi "günəşin" adındandır. Türk xalqlarından başqa, bütün dillərdə bu ölkənin adı "Qretsiya" kimi adlanır. "Qr" məfhumu dilçilikdə bu günə qədər öyrənilməmiş samit+samit (c+c) formulasından yaranmışdır.Bu məfhum ən qədim "günəş tanrısı" Qorun adındandır. "Qor" məfhumundan "o" saitinin düşməsidir.Türklər qədim mifologiyadan Qorun günəş tanrısının oğlu olduğunu bilərək, bu ölkənin adını "Yunan" adlandırmışlar (gün-yun) . Bu məfhumda "g" samiti "y" qohum samiti ilə əvəzlənmişdir.***

İndi isə əsas məsələyə keçək.Böyük İsgəndərin adı niyə Makedoniya adı ilə bağlıdır?



Çox qərinələr keçsə də, dünya fatehi olan İsgəndərin tarixdə "Böyük İsgəndər","Makedoniyalı İsgəndər","İsgəndər Zülqərneyn" və avropalaşmış "Aleksandr Velikiy","Aleksandr Makedonskiy" və s. kimi adları qalmışdır.Onun haqqında yaranan əfsanələr Azərbaycan folklorunda da özünəməxsus yer tutmuşdur.Hətta müsəlman xalqları öz övladlarına İsgəndər adını verirlər.Hər bir azərbaycanlı məktəblisi "İsgəndərin buynuzu var,buynuzu" xalq nağılını oxumuş,onu öz folkloru qədər sevmiş,onun pedoqoji-psixoloji tərbiyyəsindən yararlanmışdır.Böyük Azərbaycan şairi Nizami Gəncəvi daha irəli gedərək, özünün "Xəmsə"sində "İsgəndərnamə" poemasını yaratmışdır.

***O,bu poemada İsgəndərin həyatından,hərbi səfərlərindən,fəlsəfi görüşlərindən bəhs etmiş,onu xalqımıza yaxınlaşdırmaq üçün, Azərbaycanın qədim mərkəzi olan Bərdə şəhərinin hakimi Nüşabə ilə görüşünü təsvir etmişdir. Tarixi mənbələrdə Böyük İsgəndərin İran hökmdarı I Dara ilə Qavqamela döyüşündə (e.ə. 01.10.331-ci il) Dara tərəfindən oğuz mənşəli oxatan (oxçular) döyüşçülərin iştirakı göstərilir.İranlı döyüşçülərdən fərqli olaraq,oğuzların cəsurluqları barədə yazılı tarixi qeydlər vardır.Böyük İsgəndər I Daranı məğlub etdikdən sonra, həmin oxçu döyüşçülərdən özünün döyüş səfərlərində istifadə etmişdir.Böyük Fateh əvvəlki döyüşlərindən fərqli olaraq, uzun nizələrlə silahlanmış piyadaların hücumundan əvvəl, oxçuların döyüşünə başlayırdı. Bu yeni hərbi taktika düşmən qoşunları arasında vahiməyə səbəb olurdu və düşmən döyüş meydanından qaçırdı.Bu gün müasir hərbdə də İsgəndər hərbi məktəbindən yararlanırlar.Müasir döyüşlərdə canlı qüvvənin hücumundan əvvəl tətbiq edilən hava hücumları, qədim oxçuların döyüşlərinin yeni formasıdır.Biz bunun 2-ci Qarabağ müharibəsinin gedişində də şahidi olduq. Qədim Oğuzların təmassız hərbi hava hücum taktikası ənənəsindən yararlanan Müzəffər Ordumuz müasir pilotsuz aparatlarla bu möhtəşəm qələbəyə nail oldu.(Bu pilotsuz uçuş aparatlarının yaradıcısı da türk oğlu türkdür.) Buradan məlum olur ki,hələ e.ə. 330-cu illərdə oğuzların döyüşkən bir xalq olması tarixə düşmüşdür.Makedoniyalı İsgəndər "Qavqamela" döyüşündə Qədim Oğuz xalqının döyüşçülərinin (oxçuların) hünərinə heyran qalmış və bu səbəbdən də, onların vətənini ziyarət etmişdi.İsgəndər Zülqərneynin adı Tövratda və Quranda da çəkilmişdir.***



Makedoniyalı İsgəndərin tərcümeyi-halında göstərilir ki,o e.ə.356-cı ildə Yunanıstanın Pella şəhərində anadan olub,e.ə.323-cü ildə Babil;İskəndəriyyə şəhərində vəfat edib.O,16 yaşına qədər Yunan filosofu Aristoteldən dərs almışdır.Atası II Filipin ölümündən sonra e.ə. 336-cı ildə 20 yaşında taxta çıxan İskəndərə atasından miras olaraq güclü dövlət və təcrübəli yenilməz ordu qalmışdır.O.30 yaşına qədər dünyanın ən böyük imperiyasından birini (Yunanıstandan Misirə və Şimal-qərbi Hindistana qədər) yaratmışdır.

### E.ə. 334-cü ildə

***o,Anatoliyanı (şərqi, Anadolu da bu sözdəndir.) idarə edən Əhmənilər imperiyasını fəth edib və 10 il davam edən hərbi əməliyyatlara başlayıb.İsgəndər həlledici döyüşlərdə xüsusilə İss və Qavqamela döyüşlərində İranın gücünü məhv edib.O,İran hökmdarı I Daranı hakimiyyətdən salıb və İranın torpaq ərazilərini fəth etmişdi.Hökmdar, Sasani dövlətçiliyinin ruhunu qırmaq üçün, Zərdüştlük dininin inək dəriləri üzərində yazılmış "Avesta"sını yandırtmışdı."Dünyanın sonuna və Böyük Xarici Dənizə" çatmaq istəyən İsgəndər e.ə.328-cı ildə Hindistanı fəth edib,ancaq ordusunun tələbi onu geri qayıtmağa məcbur etmişdi.***

Gəlin "Makedoniyalı İsgəndər" adının tarixi,coğrafi və dilçilik baxımından etimologiyasını təhlil edək.Bu gün dünyanın ensiklopedik mənbələrində onun adı "Alexandros Ho Megas" kimi qeydə alınmışdır.Ensiklopedik mənbələrdə yunan dilində "Alexandros" sözünün 1-ci hissəsi "alexo"-"müdafiə etmək","kömək etmək";2-ci hissə "aner"-"adam" kimi mənalandırılmışdır.Adın 2-ci hissəsi olan "Megas" isə "böyük" mənasında verilmişdir. "Makedoniya" isə yer adı kimi izah edilmişdir."Makedoniya" sözünün özü yunan dilində "Makedonia", latın dilində isə "Macedonia" kimi yazılır.Çox vaxt bu "Macedo" kimi də işlənilir.Əgər biz latın dilində yazılan "Macedonia" sözünün etimologiyasını fonetik səslərin iştirakı ilə açsaq,sözün ayrı bir mənası ortaya çıxacaqdır.(Qədim ellinizmdə saray dili latın dili olmuşdur.) Sözün 1-ci hissəsi "mace" latın dilində "gürz" mənasını bildirir."Gürz" sözünün özü semantik cəhətdən mifolojidir."Gürz" hakimiyyətin simvolu sayılır və tanrının təcəssümüdür.Qədim hökmdarların rəsmləri olan təsvirlərdə bunu açıq görmək mümkündür.Firdovsinin "Şahnamə"sinin qəhrəmanı Firudinin, rus çarları İvan Qroznunun,Yekatrinanın rəsmlərindəki, hətta Rusiya imperiyasının gerbində "ikibaşlı qartal"ın caynağındakı "gürz" hökmranlığın rəmzidir."Gürz" sözünün semantik mənası "buynuz" sözündəndir.

**Sözün mənşəyi teomifologiyadır.(tanrıçılıq) Əfsanəyə görə Qor misirlilərin axirət dünyasının tanrıları Osirus və İsıdın oğludur."Gürz" məfhumu Günəş Tanrısının oğlu Qorun adından yaranmışdır.(qorqür) Qədim qibti dilində "qor" sözü yeni bir məna kəsb edərək, "qərn"-"buynuz" mənasını bildirmişdir.Bu isə ibtidai insanların tanrı təsəvvürlərindən doğmuşdur.İbtidai insanlar Tanrını insandan fərqləndirərək, onu buynuzlu təsəvvür edirdilər."Qor" sözü latın dilinə də "koruna"-buynuz kimi tərcümə olunur."Qor"-"kor" həm ərəb,həm də latın dillərinin leksikasında mifoloji paralelizmin nümunəsidir. İbtidai insanlar dəmir dövründən əvvəl,ağacdan olan "gürz"ün toppuz hissəsini heyvan buynuzları ilə bəzəyirdilər."Gürz" sözünün semantik mənası tanrıçılıq təsəvvürünün (buynuz) məhsuludur.**

**(ardı var)**

# "Qara dəlik" və ya Qaranlıqdan işığa doğru

## (Cahangir Ələkbərovun "Qara dəlik" povesti haqqında düşünərkən)

**Əslində son dönəmlər heç bədii ədəbiyyat oxumağı sevmirdim. Yox ki, həvəsim yox idi. Sadəcə olaraq mövzu etibarı ilə elə bir maraqlı povest və ya romana rast gəlmirdim. İlk baxışda adı diqqətimi çəkdi. "Qara dəlik". Niyə məhz "Qara dəlik"? İlk anda düşündüm ki, görəsən müəllif bu adla nəyə işarə edir? Bilirdim ki, "Qara dəlik" - kosmosda olan və işığın belə qaça bilmədiyi çox güclü bir qravitasiya sahəsinə sahib olan kosmik cismdir. Ancaq fikrim məni heç də yanıltmamışdır. Müəllif kosmik cismlərdən söhbət açmaq belə niyyətində deyildi. Bəs məqsəd nə idi? Elə bu düşüncələrlə Cahangir Ələkbərovun bu günlərdə nəşr olunan və hələ ki, çox səssiz mülahizələr burulğanında işıq saçan "Qara dəlik" povesti haqqında danışmaq istəyirəm. Qeyd etdiyim kimi hələ ki, səssiz mülahizələr burulğanında var-kər edən bu povest qısa zaman kəsiyində böyük səs-küyə səbəb olmaqla geniş müzakirələr burulğanına yol açacaq.**

### İlk oxunuşda

povest bir ailəni faciəli sonluğa təhrik edən qəhrəmanın həyat hekayəsindən bəhs edildiyi təsəvvürünü yaradır. Əslində isə heç də belə deyil. Müəllif tərəfindən hadisələr o qədər dəqiqliklə və ardıcıl olaraq bir sap üzərində eyni ölçüdə düzülmüş mirvari qaşına bənzəyən yozumla izah olunur ki, hadisələr burulğanının iştirakçısına çevrilməyə bilmirsən. Çox zaman isə povesti oxuduqca sanki hadisələrin elə müəllifin həyatının bir hissəsi olduğunu zənn etməklə düşündükcə hadisələrin cərəyan prizmasından baxışında isə daha dolğun faktların və məkanların dəqiqliyi ani olaraq bu fikirdən də yan keçməyi təlqin edir. Povestdə hər bir sözün deyimində müəllif əslində 70 illik Postsovet məkanının XX əsrin sonlarında baş verən burulğanlarından qaynaqlanan xalqların faciəsini çox ustalıqla bir ailənin fonunda öz oxucusuna təqdim edir. Bununlada o, baş verən hadisələri daha bəşəri dillə təqdim etməyi bacarır.

***Hadisələr bir otaqda iki nəfərin səssiz bir-birilərindən sanki qisas alırlarmış kimi baxışları ilə qaranlıqları yaracaq sabahın açılmasını gözləyir. Ata və qəddar oğul. Müəllif obrazlı şəkildə hər addımında öz günahlarını da onun boynuna bicərək necə can verməsini, ölümün pəncəsində necə çabalamasını və buna rəğmən onun varisi olaraq varidatının əldə olunması üçün can verən atanın sinəsi üstündə yazılan kağız parçasının açılmasını səbirsizliklə gözləyən bir oğulun surətini vəziyyətlər halından daha çox əqidəsizliyin, vicdansızlığın nümunəsi kimi təqdim edir.***

Qisas hissinin gücünü atanın timsalında Epiloq şəklində şərh edən müəllif sonrakı hissələrdə hadisələri dərinləşdirməklə daha dolğun və müfəssəl formada təqdim etməyi bacarır. Hadisələr dörd iştirakçının dilində oxunur, təkrarlanır ancaq hər dəfəsində də hadisələri yenidən danışırmış kimi müəllif təqdimatında daha maraqla izlənilir. Bu məqamda müəllif yazır: "Qocanın sifətindəki qəribə təbəssüm kişini qıcıqlandırırdı. O, başa düşdü ki, hətta indi ölüm yatağının yanında əyləşməyinə baxmayaraq bu adamı fikrində belə ata deyərək çağırmaq istəmir" və ya " "İstəkli" oğul ilə "əziz" ata arasında gözyaşardıcı vidalaşma mərasimi əlbəttə ki, olmayacaqdı. Qocanın ölümü onu əsla həyəcanlandırmırdı. Onun marağını qızışdıran yalnız can verən qocanın sinəsinin üstündəki qalın zərf idi. Artıq neçənci dəfə idi ki, zərfin üstünü oxuyurdu: "Zairə. Yalnız dəfnimdən sonra açılsın." O, can verən qocanın qarşısındakı üstünlüyündən imtina edərək onun vəsiyyətini yerinə yetirəcəyinə qərar verdi". Bax beləcə hadisələr gərkinləşir və daha da kəskin hala keçməklə vəziyyətlər halından kənarlaşır.

***Qeyd etmək istəyirəm ki, həm də müəllif mövzunun davamı olaraq hər bir fəsli daha geniş bir formada xüsusi ad vasitəsilə bir az da fəlsəfi baxış bucağında təqdim etməyə çalışır. Elə bunun nəticəsidir ki, oxucu ilə povest arasında hər hansı bir səd hiss edilməməklə hadisələrin necə bitəcəyini və vəziyyətlər halının real həyatla eyniliyinin təcəssümü meydan gəlir.***

### Epiloqdan sonrakı birinci fəsil

"Oğul" adlanır. Bu fəsildə baş verən hadisələrin müəllif təfərindən 1982-ci ildə Postsovet məkanının rəhbəri hesab edilən Brejnevin vəfat etdiyi vaxtlara təsadüf edildiyi bildirilərək Bakının Montin qəsəbəsində təsvir edilir. İki gəncin milliyyətcə erməni olan Eduard (Edik) və azərbaycanlı Zairin arasında baş verən hadisələr bir daha deməyə əsas verir ki, münasibətlər bir millətin digər millətə qarşı olan psixoloji müharibəsi, zehni gərginlik və utancverici münasibətlərin fonunda cərəyan edir. İlk günlər münasibətlər dostluq zəminində başlasa da sonda erməni Eduardın azərbaycanlı Zairə qarşı cinsi zorakılıq göstərməsi ilə hadisələri daha da gərkinləşdirmiş olur. Bununla da müəllif povestdə erməni xislətinin hər an nə qədər düşünülmüş formada bir ailənin timsalında millətin aşılanması və psixoloji gərkinlik fonunda düşmənçilik münasibətlərindən söhbət açır. Povestdə hətta Zairi ailəsinə dəvət edən Eduardın anası ermənilərin guya "milli xörəyi" adlandırdığı və süfrəyə təqdim etdiyi dolmanın təsvir edilməsi belə uzun illərdən bəri erməni daşnaqsütun xilqətindən xəbər verir. Ortaya maraqlı bir sual çıxır. Niyə müəllif məhz povesti bu kimi xoşagəlməz və sadə olduğu qədər də mürəkkəb bir münasibətlər fonunda qurmağa çalışır? Məqsəd heç də gündəlik həyat tərzinin təqdim edilməsi deyil. Məqsəd bir ailənin timsalında Postsovet məkanın pərdə arxası çürük etik tərbiyyəsinin forma etibarı ilə göstərilməsi və psixoloji müharibənin Postsovet məkanından qaynaqlanmasının təqdimidir. Müəllif bu məqamda yazır: "Bundan sonra bizim görüşlərimizin sayı daha da artdı. Artıq dərsdən qaçmağımız gözə çarpmağa başlamışdı. Hadisənin ən xoşagəlməz tərəfi o idi ki, Edik təfsilatı ilə bizim yaxınlığımız haqqında sinif yoldaşına danışdı, o isə eşitdiklərini məktəbin direktoru olan xalasının ovcuna qoydu. Direktor da öz növbəsində valideyinlərimizi məktəbə çağırdı və bu dəhşətli sirri onlara açdı".

***Beləliklə, müəllif povestdə hadisələri daha da gərginləşdirməklə gündəlik həyat tərzindən formalaşan surətlər tipini təqdim etməklə sonradan qloballaşacaq milli problemə çevrilən, 1988-ci il hadisələrinə Qarabağ probleminin millətin, xalqın bəlasına çevrilməklə ilkin mərhələdə formalaşmasından xəbər verir. Müəllif bu fəsildə qeyd edir ki, baş verən məlum 1988-ci il hadisələrindən sonra Eduard (Edik) anası ilə birgə Krasnodara köçmüş, azərbaycanlı soyadını erməni soyadına dəyişdirərək hərbi məktəbə daxil olmuşdur. Hadisələr fonunda ailənin baş verən cinsi zorakılıqdan sonra üzqarasından yaxa qurtarmaq məqsədilə Gəncəyə köçməsini təsvir edən müəllif vəziyyətlər halını Zairin burada təhsil aldığı orta məktəb direktorunun da milliyətcə erməni Lyudviq Vartanoviç olması və ziyalı görkəmli adam təsəvvürü yaradan daxilində isə qatı millətçi olan birisinin Artsax erməni terror təşkilatının rəhbərlərindən və sponsorlarından biri olması faktı ilə daha da dərinləşdirmiş olur. Ailə daxili vəziyyətlərin gərkinləşməsi fonunda müəllif yazır: "Azərbaycanda növbəti hakimiyyət dəyişikliklərinin birində atam işsiz qaldı və biz rəzalətin nə olduğunu bildik".***




Daha sonra müəllif "qüdrətli ölkə" hesab edilən SSRİ-nin dağılması və onun tərkibində olan respublikaların müstəqillik qazanması, hakimiyyət və mülkiyyət uğrunda mübarizənin necə qızışması faktından söhbət açır. Bu dövrdə bütün respublikalarda olduğu kimi Azərbaycanda da hakimiyyətdə olan başıpozuqluluq və korrupsiya, rüşvətxorluq faktlarının vüsət aldığı diqqətlə izlənilir.

Povest boyu cərəyan edən hadisələr uşaqlıqdan düşdüyü mühit Zairi bir az da tüfeyli həyat sürməyə vadar etməklə ata qazancı ilə dolanmağı, bu azmış kimi hətta həyat yoldaşının ata və anasının maddi kölkəsi ətrafında sürünməyi üstün tutması ilə müşahidə olunur. Hətta onun bir müddət sonra qaynanası ilə gizli münasibətləri hadisələrin daha da gərginləşməsi fonunda ailəsinin dağılmasına və onun tamamilə tənha həyat sürməsinə səbəb olur. Tüfeyli bir övlad anasının vəfatından sonra artıq atasının nə vaxt vəfat edəcəyini və ona çatacaq vərəsəlik hüququndan yararlanmasını səbirsizliklə gözləyirdi. Müəllif bu məqamda yazır: "Ölümündən əvvəl məni yanına çağırdı. Elə bildim ki, barışmaq istəyir. Lakin zənnim məni aldatdı. Bu, bir-birinə dərin nifrət bəsləyən, bir-birinə yad olan iki insan arasında olan söhbət idi. Mən dəqiq bilirdim ki, gec-tez atam məndən heyfini çıxacaq. Və bu, onda alındı. Atam düz ürəyimdən yaralamağı və həyatımı alt-üst etməyi bacardı. O, məni sındırdı və məhv etdi. Və işə bax ki, onun son nəfəsinin yeganə şahidi də məhz mən oldum. Atamın dəfn mərasimində iştirak etmədim. Qoca kaftar özü belə istəmişdi".

### Atasının dəfnindən sonra

vəsiyyətinə uyğun olaraq Zair ona çatacaq on min dolları götürüb daxili nifrət hissi ilə atasına məxsus evi, şəhəri, ölkəni həmişəlik tərk edir.

***Povestin ikinci fəsili "Qız", üçüncü fəsili isə "Məhəbbətim mənim" adlanır. Bu fəsillərdə müəllif hadisələri daha müfəssəl və geniş bir formada, aydın, özünəməxsus sakit bir dildə oxucuları ilə bölüşməklə atasının vəsiyyətini yerinə yetirən qız övladının söhbətləri ilə başlayır. Fəsillər bir-birinin ardıcıllığı ilə vəziyyətlər halına uyğun olaraq tamamlandığı məqamdan yenidən təkrar olaraq daha geniş izahat formasında söylənilir. Povestdə cərəyan edən hadisələr beləliklə də daha geniş formada təfsilatı ilə izlənilə bilir. Müəllif tərəfindən hadisələrin inkişafına bu kimi yanaşma tərzi isə oxucunu yormur əksinə daha aydın şəkildə obrazlı formada təqdim olunmasına xidmət edir. Ata ölümündən sonra yazılmış məktubu həyatının bir parçası olaraq hər kəslə paylaşmaq niyyəti ilə hətta nəşr olunması vəsiyyətini edir. Qızı isə sanki bu vəsiyyəti icra edirmiş kimi məktubu oxuyaraq xəyalən dinləyiciləri ilə bölüşür. Povestdə cərəyan edən hadisələr bununla da daha dolğun və orjinal bir formada öz oxucusuna çatdırıla bilir.***

Müəllif povestdə Postsovet məkanında baş verən son hadisləri daha aydın izah etməklə bu rejimin dağılma səbəblərini də özünəməxsus bir incəliklə izah edərək yazır: "Brejnevin qızıl dövrü məntiqi sonluğuna yaxınlaşırdı. Bu illər ərzində dövlət özünü elə göstərirdi ki, guya əmək haqqı verir, zəhmətkeşlər isə öz növbəsində özlərini elə göstərirdilər ki, guya əməklə məşğuldurlar.

Cəmiyyətin bütün sahələrində oğurluq adi hala çevrilmişdi. İnsanların sanki utanc, qınaq hissi ölmüşdü. Hətta belələrinə paxıllıqla yanaşırdılar. Yalnız maaşla dolananlara isə üstən aşağı baxırdılar.

Belə zəhmətkeşlərə el arasında "daşıyanlar" deyirdilər, onlar iş yerindən hər nə olsa çırpışdırmağa çalışırdılar. Bütün bunlar, sosialist əmlakının toxunulmazlığını təmin etmək üçün yaradılmış Müəssisədən Kənar Mühafizənin, Sosialist Əmlakının Dağıdılmasına qarşı Mübarizə Şöbəsinin (cəmiyyətdə rus abreviaturası kimi tanınan OBXSS), Xalq Nəzarəti Komitələri əməkdaşlarının səhlənkarlığı nəticəsində, çox zaman isə onların bilavasitə iştirakı ilə baş verirdi".

Povestdə maraqlı məqamlardan bir də atanın dini ritual formada axirət dünyasına inanması və hətta özsağlığında qonşusu tərəfində icad edilən texniki vasitələrlə vossap görüntüsü ilə çox sevdiyi həyat yoldaşı ilə danışması da maraqla izlənilən həyat həqiqəti kimi təqdim edilir. Əslində müəllif bununla insanın bu dünyada qarşısına qoyulan məqsəd və məramının sona yetdiyini digər bir dünyaya köçməsi ilə daha bəşəri bir varlıq olaraq yeni həyat missiyasına başalamasına dəlalət etdiyini bildirməklə insan varlığının ölməzliyinin göstəricisi qənaətində olduğunu təsdiqləmiş olur. Müəllif bununla da qaranlıqdan işığa qədər sonsuz insan varlığının mövcudluğunu maraqlı detallar vasitəsilə oxucusunun diqqətinə təqdim edə bilir.

### Povestin sonunda

***məlum olur ki, Zairin doğma anası da erməni qadını olaraq Moskvada yaşayır. Zair burada ögey atasının köməyi ilə azərbaycanlı soyadını erməni soyadına, adını isə sevdiyi aktyorun şərəfinə Frunzik olaraq dəyişərək erməni dilini öyrənmək üçün pullu kurslara yazılır. Müəllif bu məqamda yazır: "Erməni dili kursları başa çatdıqdan bir neçə ay sonra Zair - Frunzik Abramyan Ermənistanın hərbi hissələrinin birinə zabit rütbəsində qulluğa götürüldü və Tovuz döyüşlərində Azərbaycan ordusuna qarşı vuruşdu".***

Müəllif tərəfindən povestdə böyük həssaslıq və incəliklərlə sona qədər izlənilən Qarabağ probleminin çözülməsi, 44 günlük Vətən müharibəsinin başlanması və qələbənin Ali Baş Komandanın qətiyyəti, qəhrəman vətən oğullarının qorxmazlılıq şücaəyəti ilə başa çatması da povestin son Epiloqunda əsas ana xətti olaraq təqdim edilir. Müəllif bir daha oxucusunun diqqətinə çatdıqmaqla yazır: "Sentyabrın 27-də gözlənilmədən Azərbaycan öz ərazisində qondarma Qarabağ Respublikasının cinayətkar hərbi rejiminə qarşı genişmiqyaslı anti-terror əməliyyatına başladı. Ölkədə hərbi vəziyyət və qismən səfərbərlik elan olundu. Komendant saatı tətbiq edildi. Bu Vətən Müharibəsinin başlanğıcı demək idi. Müharibənin ilk günlərindən ordumuz düşmənə sarsıdıcı zərbələr endirdi və Ermənistanın tərifədiyi əsgərləri hərbi texnikanı ataraq döyüş meydanından qaçırdılar. Ali Baş Komandan İlham Əliyev xalqa müraciət etdi və qətiyyətlə söz verdi ki, mənfur düşməni işğal etdiyi torpaqlarımızdan iti qovan kimi qovacağıq. Onu istəyənlər də istəməyənlər də bütün kinküdurətini unudaraq İlham Əliyevin ətrafında birləşdi".

Müəllif bu məqamda həmçinin povestdə Ali Baş Komandanın "Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik.

Ona görə də bu gün bizim uğurlu əməliyyatımız böyük nəticələrə gətirib çıxardı. Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" fikirlərinin təsdiqinin təzahürü olaraq dəyərləndirərək Vətən Müharibəsinin uğurlu nəticələrindən bəhs edir. Bununla da həmçinin müəllif 44 günlük Vətən müharibəsində Azərbaycanın qələbəsini hadisələr burulğanında qara dəlikdən işığa doğru müstəqil Azərbaycanın bir dövlət olaraq varlığının əbədi günəş tək doğmasının təzahürünü oxucusu ilə bölüşmüş olur.

**Nəticə etibarı ilə bütün bu sadalananlar isə bir daha deməyə əsas verir ki, Cahangir Ələkbərovun "Qara dəlik" povesti vaxtında qələmə alınmış orjinal bir zaman kəsiyinin maraqlı yazı nümunəsidir.**

**Anar Burcəliyev**
**Teatrşünas-tənqidçi**



*Fidan Abdurəhmanova*
*AMEA-Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Filologiya üzrə fəlsəfə doktoru, dosent*

## AZƏRBAYCAN VƏ TÜRKİYƏ ƏDƏBİYYATINDA HİMN

***Dilində xalqın milli qüruru millətin kimliyi, tarixi və mənəvi ruhu, gələcəyə ümid və inamı ifadə edən Himn elə olmaldır ki, onu oxuyan millətin hər bir övladı onu öz vətəni bilsin.***

***Himn keçmişin, bu günün və gələcəyin nəğməsidir. O, tarix səhnəsinə qədəm qoyan hər nəsillə birlikdə yenidən yaranır. O nəslin arzularını və həmin tarixin mənasını ifadə edir. Bütün canlıların hər cümə günü "la ilahə illəllah" deyə zikr etdiyi kimi, hər bir dövlətin himni də onun xalqının taleyi və dünyagörüşü haqqında, tarixdə tutduğu mövqe haqqında, gələcəyə inamı və imanı haqqında müqəddəs bir zikrdir. Himni öz nəcibliyinə, ülviyyətinə görə Azan səsi ilə müqaisə edərdim. Azan insanların qəlbinə rahatlıq gətirdiyi kimi himn də millətin qəlbinə qürur bəxş edir. Himn millətin istiqlal səsidir. Müstəqil dövlətin ruhunu ifadə edən himn - hər bir xalqın istiqlal arzularını ifadə edir.***

***Qədim yunan sözü olan Himn - dövlət atributlarından biri kimi ilk dəfə qədim Yunanıstanda yaradılaraq allahların və qəhrəmanların şərəfinə oxunmuşdur. Bu gün bütün ölkələrin himni var. Dünyanın ən qısa himni kimi tarixə düşən on bir misradan ibarət Yaponiya himninin sözləri 794 cü ildə Heyan dövründə yazılmış qədim himnlərdəndir. Yaponiyanın "Kimigayo" himni şeir formasında musiqisiz idi, Pakistanın dövlət himni isə ilk dəfə yalnız musiqi şəklində səslənmişdir. Sözləri isə bir neçə il sonra yazılmışdır. Lakin ilk himn əslində Hollandiyaya aiddir. 1568-1572-ci illərdə yazılsa da 1932-ci illərdə dəyişdirilmişdi.***

***Türk xalqlarının himni tam bir istiqlal şərqisidir. İki böyük istiqlal şairinin fəhmindən süzülən Türkiyə və Azərbaycan himni tarixin yaddaşına əbədi həkk olunub. Mehmet Akif Ersoy və Əhməd Cavad şeirləri bütün türk dünyasının birliyinə xidmət etmişdir. İstiqlal şairi Əhməd Cavadın tələbə vaxtı 1914-cü ilin, dekabr ayında yazmış olduğu "Çırpınırdı Qara dəniz" şeiri türk dünyasının ən böyük vətənpərvərlik əsəridir. Dörd il sonra dahi bəstəkar Üzeyr Hacıbəyovun bəstəsi ilə Nuri Paşanın komandanlığındakı Qafqaz İslam Ordusunun Azərbaycandakı qəhrəmanlığına ittihaf olunmuşdur.***

***Dost elindən əsən yellər,***
***Bana şeir, salam söylər.***
***Olsun turan bütün ellər***
***Qurban Türkün bayrağına!***
***Yol ver Türkün bayrağına!!!***

***Mehmet Akif Ersoy da İstiqlal marşını yazmazdan illər öncəki şeirləri dövrünün real mənzərəsindən xəbər verirdi. Bu şeirlərdə şair nə qədər ziddiyyətli və çətin hadisələrdən bəhs etsə də, daha sadə və rəvan sözləri, ifadə tərzləri ilə dildəki saflığa münasibətini nümayiş etdirmiş olurdu.***

***"Doğrudan doğruya Kur'an'dan alıp ilhamı***
***Asrın idrakine söyletmeliyiz İslam'ı"***
***Rüku'um yerde titrerken, huşu'um Arş'ı titretsin!***
***İlahi! Serseri bir damlanım, yetmez mi hüsranım?***

***Mehmed Ersoy uzun illər xalqlar arasında eləcə də, bütün dünyanın diqqətində olan din və sivilizasiya problemləri çərçivəsində olan mədəniyyətlərarası münasibətlərdə tükrlərin rolunu, mövqeyini üzə çıxararaq bir bayraq altında qorumağa çalışmışdır.***

***Mehmet Akif Ersoy yeganə şairdir ki, türk xalqına, ordusuna İstiqlal Marşı hədiyyə etmişdir. Bu marş Böyük Millət məclisində oxunaraq, Dövlət Himni kimi qəbul edilmişdir. Bütün şairlərin, təxminən 724 şeir təqdim olunan bu müsbiqədə, dövrün söz ustası böyük şairi əslində iştirak etmək niyyətində deyildi. Lakin bir gün divarda, gələcəkdə türk dövlətinin himninin birinci misrasına, dırnağı ilə qazıdığı bu cümləyə yast gəlinir: "Korkma sönmez bu şafaklarda yüzen al sancaq"! İki gün sonra beynimdən keçənləri qələmim tutmur deyə gileylənərək bu himni tamamlayır:***

***Korkma, sönmez bu şafaklarda yüzen al sancak;***
***Sönmeden yurdumun üstünde tüten en son ocak.***
***O benim milletimin yıldızıdır, parlayacak;***
***O benimdir, o benim milletimindir ancak.***

***"İstiklal Marşı"***

***M. Turhan Tan şairin rəhmətə getdiyi gunlərdə bir qəzetdə yazacaq: "Hayır, aziz ölü, hayır. Seni herkes ve her zaman anacak. Adın, tarihte olduğu gibi, yüreklerde de yaşayacaktır. Çünkü yazdığın marşla adın, Türk istikl?line bağlı, yani ebed? kaldı. Ruhun emin ve müsterih olsun...***

***Eynən Türkiyə tarixindəki kimi, 1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası milli himnin hazırlanması haqqında qərar qəbul edərək müsabiqə elan edir. Müsabiqə iştirakçıları layihələrini may ayınadək təqdim etməli, Cümhuriyyətin ikinci ildönümünə qədər nəticələrin elan olunması planlaşdırılsa da, 1920-ci il aprelin 28-də Sovet Rusiyası qoşunları tərəfindən Azərbaycanın işğalı milli himninin qəbul olunmasına mane oldu. Üzeyir Hacıbəyov bu himni bir neçə il öncə Yusif Vəzir Çəmənzəminlinin milli birliyə, mübarizəyə həsr olunmuş məqaləsinə ("Zəruri məsələlər" /Y.V.Çəmənzəminli // Açıq söz.- 1917.- 19 dekabr) əsasən bəstələmişdi. Yazıçı Ukrayna milli hərəkatı tərəfindən yaradılmış "Azad birlik" jurnalında Azərbaycan xalqını tanıtmaq məqsədi ilə silsilə məqalələrlə təmsil edirdi.***

***Uzun illər səslənməyən bu himn, 1989-cu ildə bəstəkar Aydın Əzimov tərəfindən aranjeman edilərək, 70 illik fasilədən sonra ilk dəfə olaraq Azərbaycan xalqı qarşısında səsləndirilmişdi. 1992-ci il mayın 27-də Milli Məclis "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul edərək Üzeyir Hacıbəyovun Əhməd Cavadın şeirinə bəstələdiyi "Azərbaycan marşı" Dövlət himni kimi təsdiq olunur.***

***Azərbaycan! Azərbaycan!***
***Ey qəhrəman övladın şanlı Vətəni!***
***Səndən ötrü can verməyə cümlə hazırız!***
***Səndən ötrü qan tökməyə cümlə qadiriz!***
***Üçrəngli bayrağınla məsud yaşa!***
***Üçrəngli bayrağınla məsud yaşa!***

***İstiqlal şairləri Əhməd Cavad və Mehmet Akif Ersoy əsərlərində müasir sivilizasiyanın inkişaf meyllərinə qərb mədəniyyəti ilə qarşılıqlı əlaqələri məqbul saysa da, İslam mədəniyyəti birliyinin inkişafına xüsusi önəm verdikləri seirlərində özünü göstərməkdədir.***

***"Doğrudan doğruya Kur'an'dan alıp ilhamı***
***Asrın idrakine söyletmeliyiz İslam'ı"***
***Rüku'um yerde titrerken, huşu'um Arş'ı titretsin!***
***İlahi! Serseri bir damlanım, yetmez mi hüsranım?***

***(Mehmet Akif, Safahat, "gölgeler")***

***Ey hərbin taleyi, bizə yol ver, yol!***
***Sən ey gözəl dəniz, gəl türkə ram ol!***
***Sən ey sağa, sola qılınc vuran qol,***
***Qollarına qüvvət gələr, bismillah!***

***(Əhməd Cavad, "Bismillah")***

***Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydalarına əsasən Azərbaycan dövləti və xalqı üçün mühüm tarixi hadisələr olduqda (6.1.6.) səslənməsi vacib olan himnimiz Vətən Müharibəsinin Qələbəyə həsr olunan Zəfər Paradında, Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı və Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə Türkiyə Cumhurbaşkanı Recep Tayyip Erdoğanın iştirak etdiyi tədbirdə səslənən hər iki dövlətin Himni - Vətən marşı Milli qürur və Milli birlik hissini dünyaya bir daha bəyan etdi.***

# SÖZÜN VƏ SƏSİN HARMONİYASI: "MƏNİM FÜZULİM"

## Kamal Abdullanın "Mənim Füzulim" esselər toplusu haqqında düşünmək cəhdi...



*Tural Cəfərli*
*Naxçıvan Dövlət Universitetinin magistrantı*

**Uzun müddətdir ki, bir sirli-sehirli dünyaya tərəf boylanıram. Boylanıram və heyran oluram, təəccüb və həyəcanla gördüklərimi seyr edirəm, seyr etdikcə özümü itirirəm, zaman və məkan anlayışlarından uzaqlaşıram....**

Xalq yazıçısı, akademik Kamal Abdullanın "Mənim Füzulim" kitabı ilə bu sirli-sehirli dünyaya tərəf addımlayanda qarşılaşdım.

Bu mənim Füzuli dünyasına ilk səyahət kitabım oldu. Şövkət Ələkbərovanın ecazkar ifasında, Cahangir Cahangirovun "Füzuli" kantatasını dinləyirəm və "Mənim Füzulim" kitabı haqqında düşüncələrimi yazıya köçürürəm.

***"Mənim Füzulim" kitabı sanki sözün və səsin bir-birinə doğru can atan əsrarəngiz hərəkətindən yaranıb. Kitabda Səttar Bəhlulzadənin "Leyli və Məcnun" mövzusunda çəkdiyi ölməz görüntülər qrafik sənətin nadir inciləri kimi bu kitabın düzənini təşkil edir. Kitabın yazılma səbəblərindən biri kimi müəllifin müəllimləri: unudulmaz Mir Cəlalın "Füzuli sənətkarlığı" və Məmməd Cəfərin "Füzuli düşünür" əsərlərinə işarə olunur. Mir Cəlalın poetik düşüncələrinə, Məmməd Cəfərin fəlsəfi-idraki qənaətlərinə əsaslanmaqla fərqli və özünəməxsus bir əsəri oxuyuruq.***

Kamal Abdulla Azərbaycan ədəbiyyatının məhz Füzuli ilə XVI əsrə daxil olduğunu, öz dilini yenidən yaratdığını, qoruduğunu və dünya dəyərlərinə qiymət verdiyini bildirir. Füzuli Kamal Abdullanı ahənrüba kimi özünə cəlb edib.

### *Füzuli xatırlayır: "Deyildim mən sənə mail"*

Müəllif Füzuliyə addım-addım, sətir-sətir, söz-söz yaxınlaşmaq istəyir. Yaxınlaşdıqca düşünür, düşündükcə Füzulinin uşaqlığını, yeniyetməliyini təsəvvür edir, onun söhbətlərinə, hərəkətlərinə canlı şahidlik etmək istəyir. Lap xırdalığına kimi, ən incəliyinə kimi Füzulini görmək, seyr etmək, yəqin olmaq istəyən müəllif gizlinləri, sirrləri açmağa çalışır. Füzulinin göylə yer arasındakı səyahətini və bu səyahətin möcüzəvi həqiqətlərini başqa heç kimdə görməyən Kamal Abdulla sanki bu aləmin bir parçası olmaq istəyir...

### *Məni candan usandırdı, cəfadan yar usanmazmı?*

***Müəllif bu misranı özünəməxsus şəkildə təhlil edir. Bu misradan sonra qəzəlin əsas bədii vəzifəsinin "usanmazmı" sözünə qafiyə tapmaqda olduğunu bildirir. Qeyd olunur ki, sonuncu beytin qafiyəsi kimi yenə də təkrarən "usanmazmı" sözü ilə qarşılaşırıq. "Sorun kim bu nə sevdadır, bu sevdadan usanmazmı?"***

Müəllif Füzulinin, dahi söz ustadının təsadüfən və ya çıxılmaz vəziyyətdə qalıb təkrarçılığa yol vermədiyini və bunun necə təkrar olduğunu izah edir. Şair üçün başqa qafiyənin qəhət olmadığını, ancaq bunun necə baş verdiyini sual edir. Burada harmoniyanın, qəzəldə əvvəl ilə axırı təkrar vasitəsilə birləşdiyini vurğulayır. Ancaq füzulişünas alim Hacı Aqil Məlikov bu beytlə bağlı fikirlərini belə bölüşür: Burada "usanmazmı" qafiyəsi qəzəlin birinci beytindəki qafiyə ilə eyni mənanı daşımır. Qəzəlin son beytindəki "Usanmazmı" sözünun kökü "us" dur. "Us" sözü qədim türk dilində "sağalmaq" "şəfa tapmaq" mənasını verir. Beytdəki "sevda" sözü isə "xəstəlik" anlamındadı. "Bu sevdadan usanmazmı?" "Bu xəstəlikdən sağalmazmı?"

### *"Deyildim mən sənə mail"*

Füzulinin bu misrasındakı etiraf müəllifi rahat buraxmır. Füzulini hamının gördüyü kimi görmək istəməyən Kamal Abdulla onu görünüş etibarı ilə daha gənc, daha şux olduğu dönəmin düşüncəsi ilə yanaşmanı doğru hesab edir. Füzulinin adi məişət qayğılarından tutmuş, ilk müəlliminin kim olması, kimə ilk qəzəlini oxuması, kiminlə dostluq etməsi maraqlandırır. Axı Füzuli "salam" verib cavab almadığı adamlar haqqında yazmaqdan əvvəl bu hadisəni kimlərəsə danışmalı idi, necə pərt olduğunu kimlərəsə təsvir etməli idi... Bu mənada Kamal Abdulla Füzuli dünyasına yeni və fərqli bir baxış ortaya qoymuş olur.

Füzulinin daha gerçək və aydın mənzərəsini görmək üçün çox çalışmaq lazımdır. Füzulinin misralarını bir istehkam kimi qarşımızda dayandığını və beləliklə bu "istehkam"ın arxasında ancaq Füzulini şair kimi gördüyümüz, onu insan kimi görə bilmədiyimiz qeyd olunur. Bu da maraqlı fikirdi. Buna səbəb kimi də Füzulinin özünü bizdən məharətlə gizlətməsi, aşkara çıxmaq istəmədiyi ortaya çıxır.

Füzulini "səyyah" adlandıran müəllif bu səyahətin bir beytin içində baş tutduğunu, səyahətin məharətlə təşkil olunduğunu və məqsəddən dönməzliyin önə çəkildiyini diqqətə çatdırır. Füzulinin dəqiqliyi, bütövlüyü onun hər misrasında Günəş kimi böyük bir həqiqətə çevrilir.

### *Mənə tən eyləyən qafil səni görcək utanmazmı?!*

***Ritorik mahiyyətli suallardan fərqli olaraq bu misradakı sualın cavabı dəqiq deyil. Müəllif bildirir ki, bu sual, əslində, qədim yunan teatrının qəhrəmanlarında olan kimi taleyə boyun əyməkdən başqa bir şey deyil. Digər bir mənada baxsaq, görərik ki, Füzuli burada ona tən eyləyən qafilin üzərinə getmir, onu başa düşməyə çalışır.***

"Mənim Füzulim" kitabı başdan-başa sirrlərlə doludu. Burada Füzulinin sirrlərinə bir sirr də əlavə olunub: "Zaman" anlayışı. O zaman ki, Füzuli onu aşmağı bacarmış və özü zamana qalib gələ bilmiş.

### *Füzuli xatırlayır: "Bir dərdli macəra imiş eşq..."*

***Füzuli şeiri sanki bir riyazi sxemdir, şahmatı xatırladır. Hər gedişdə yeni bir gediş, yeni bir həmlə görünür. Müəllif də Füzulini bu ağırlıqdan qurtarmaq, bu yükdən azad etmək istəyir. Onu öz əsərinin personajı kimi təqdim edir.***

"Mənim Füzulim" kitabı Füzulini anlamaq, onun sirrli dünyasına səyahət etmək üçün əlverişli və önəmli bir tədqiqat əsəridi. Füzuli şəxsiyyətinə və fəlsəfəsinə baxışlarda nə qədər fərqlilik və yenilik olsa da, Füzuli sözünün böyüklüyü hər mənada və hər məqamda aydın sezilir...

*Olur qəddim düta eşqin yolunda, hər bəla görcək,*
*Təriq əhlinə adətdir, təvazö, aşina görcək.*

Kamal Abdullanın "Mənim Füzulim" kitabı məni vadar etdi ki, bir qədər "Öz Füzulim"i bəyan edim. Odur ki, Füzuli ucalığının digər məqamları da diqqətimi çəkdi. Bu məqamlardan biri də "Bəla" anlayışıdır. Füzuli yazır: "Olur qəddim düta eşqin yolunda, hər bəla görcək" Füzuli eşq yolunda bəlanı görəndə "ikiqat" olur, burada düta "təzim" "hörmət" mənasındadı. Bəla isə "nemət"di. Füzuli eşq yolunda bəla ilə qarşılaşanda ona təzim edir, ona baş əyir.

Növbəti misrada isə deyilir: "Təriq əhlinə adətdir təvazö, aşina görcək." Təriq əhli isə, seyri-süluk əhlidir, yol gedənlər, ariflər getdikləri yolda bir-birini görəndə tanıdılar, tanımadılar, fərqi yoxdur,təzim edib, hörmət və ehtiramlarını bildirərlərmiş. Bu mənada Füzuli deyir ki, "bəla" da mənim dostumdur, dostumu görəndə ona təzim edib, ehtiramımı bildirirəm...

*Nihan eşqimi mə'lum etsə aləm, dudi-ahimdən,*
*Əcəb yox kim, gümani-gənc edər xəlq, əjdəha görgəc.*

Yuxarıdakı beytə nəzər salsaq, görərik ki, Füzuli öz eşqinin qüdrətini və böyüklüyünü necə təsvir edir: "Əgər mənim gizli eşqimi aləm ahımın tüstüsündən bilsə, burada təəccüblü bir şey yoxdur, əjdaha görən cammat o yerdə xəzinə olduğunu anlayar, mənim ahım da əjdaha oxşayır, qəlbimdəki xəzinəni bildirir..."

*Bu qəmlər kim mənim vardır, bəirin başına qoysan,*
*Çıxar kafər cəhənnəmdən, gülər əhli-əzab, oynar.*

Füzuli Qurandan göndərmə edir. Bu beytdə "bəir" sözünə diqqət etmək lazımdır. "Bəir" "dəvə" deməkdir. Sual oluna bilər: " Dəvə hara, qəm hara?" Bu əlaqəni Quran ayəsindən tapmaq olar. Ayədə qeyd olunur ki, kafirlər cəhənnəm əzabından qurtula bilməyəcəklər, onların cəhənnəm əzabından qurtulması üçün dəvənin iynənin gözündən keçməsi lazımdı. Burada Füzuli dahiliyi və möhtəşəmliyi adamı mat qoyur. Füzuli deyir ki, "Mənim qəmlərim o qədər çoxdur ki, bu qəmləri dəvənin üstünə qoysan o əriyib iynənin gözündən keçə biləcək hala gələr və beləliklə kafirlər cəhənnəm əzabından qurtulmuş olar..."

**Füzulini araşdırmaq üçün, onu başqa prizmalardan görmək üçün, bir az da daha real və gerçək tərəfdən anlamaq üçün "Mənim Füzulim" kitabı oxucular üçün mayak fünksiyasını yerinə yetirir. Bir çox mətləblərə aydınlıq gətirilir və tədqiqatçılar üçün qiymətli bir əsər kimi təqdim olunur.**

***Teatr dekorativ kütləvi sənət növüdür. Bir əsərin səhnəyə qoyulması üçün 200 nəfərlik heyət bir neçə ay ay usanmadan çalışır və hər kəs tamaşanın keyfiyyətli alınması üçün əlindən gələni əsirgəmir. Adətən bilet alıb teatra gələn tamaşaçının diqqəti səhnədə baş verənlərə yönəlir. Onlar üçün maraqlı olan bircə şeydir: tamaşa və aktyorların oyunu.***



# Zəminə Orucova: "Səhnədə adi bir mismar boş yerə vurulmur..."

## Bədii quruluş hissə müdiri teatrın hər gün birinci mərtəbəsində sonuncu mərtəbəsinədək 30-40 dəfə qalxıb- düşən birisidir...

***Ancaq hər bir teatrda elə adamlar çalışır ki, onların zəhməti olmadan heç bir tamaşa ərsəyə gəlməz. Söhbət nə reyissorlar, nə aktyorlar, nə də müəlliflər haqqında deyil, səhnəarxasında min bir zəhmətlə çalışan, ancaq adları heç vaxt çəkilməyən insanlardan gedir. Onlar reyissor köməkçiləri,qrim ustaları, səhnə tərtibatçıları, rekvizitorlar, səhnə maşinistləri, işıq ustaları və başqalarıdır. Belə olan surətdə, səhnədə pərdənin arxasında qalanların əməyinə nə üçün biganə qalaq ki? Pərdə arxasında qalan belə sənət fədailərindən biri də Gənc Tamaşaçılar Teatrının bədii quruluş hissə müdiri Zəminə Orucovadır.***

***Dosye:***

***Orucova Zəminə Yaşar qızı 1975-ci ildə Goranboy rayonunda anadan olub. Orta təhsilini Goranboy rayonunda başa vupduqdan sonpa 1992-95-ci illlərdə Əhməd Cavad adına Mədəni-Maarif Texnikumunda, 1995-2000-ci illərdə isə Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Televiziya rejissorluğu" fakültəsində təhsil alıb. Universiteti bitirdiyi ildə də Dövlət Gənc Tamaşaçılar Teatrına rejissor assisenti vəzifəsində əmək fəaliyyətinə başlayıb. Zəminə xanımın işinə çox məsuliyyətlə yanaşması, ona tapşıpılan işin öhdəsində gəlməsi teatp pəhbəpliyinin ona etimadını artırıb və 2004-cü ildə teatrın bədii quruluş hissə müdiri təyin edilib.***

### *İndiyə qədər ən çox razı qaldığım Nicat Kazımovdur...*

**- Zəminə xanım, bədii quruluş hissə müdiri teatrda kimdir?**

- Mən deyərdim ki, nəinki hər hansı tamaşanın texniki məsələləri, eləcə də bütün teatrın texniki sahəsi, o cümlədən repertuardakı tamaşaların gedişatından tutmuş, yeni tamaşaların hazırlanması prosesininin nəzarətinə cavabdeh səlahiyyət sahibi bədii quruluş hissə müdiridir. Bədii quruluş hissə müdiri həm tamaşanın quruluşçu rejissoru, həm quruluşçu rəssamı, həm aktyorlar, həm də texniki istehsalat heyətin işçiləri ilə çalışır. Yəni, obrazlı şəkildə desək, bədii quruluş hissə müdiri teatrın hər gün birinci mərtəbəsində sonuncu mərtəbəsinədək 30-40 dəfə qalxıb düşən birisidir. Tamaşaya xidmət edən həm xidməti, həm də istehsalat sexləri birbaşa bədii quruluş hissə müdirinə tabedir. Xidməti sahələrə işıq, geyim, qrim, sex, rekvizit və quraşdırma sexləri, istehsalat sahəsinə isə dülgər, butafor, tikiş və bədii dekorativ sexləri aiddir. Bütün bu sexlərin fəaliyyətinə birbaşa cavabdeh şəxs bədii quruluş hissə müdiridir. Tamaşa və ya məşq zamanı adi bir rekvizitin yerində olmaması bəzən aktyoru çaşdıra bilər. Amma hamımıza məlumdur ki, səhnədəki bütün inventarlar aktyorun oyununa xidmət edir, onun bütün mizanları səhnədəki rekvizitlərə hesablanıb. Ona görə də, bədii quruluş hissə müdiri səhnənin tam hazır olduğuna əmin olandan sonra tamaşanın başlamasına icazə verir. Onun icazəsi olmadan tamaşa başlaya bilməz. Tamaşaçı gəlib tamaşaya baxıb gedirlər, amma səhnənin necə qurulmasına o qədər də diqqət vermirlər. Amma inanın ki, səhnədə adi bir mismar boş yerə vurulmur. Səhnədəki rekvizitə görə işıq qurulur, o rekvizitə görə aktyorun hərəkətləri, həmçinin bu mizana görə də musiqi hesablanır. Yəni səhnədəki hər şey bir-biri ilə harmoniya yaratmalıdır.

### *Tamaşa qoymaq fikrimdən keçib, amma müraciət etməmişəm...*

**- Siz televiziya rejissorluğu üzrə təhsil almısınız. Özünüz tamaşa haırlamaq barədə düşünmüsünüzmü, yoxsa elə "gözünüzün qurdunu" bədii hissə müdiri kimi öldürürsünüz?**

- Mənim işim sırf tamaşanın texniki tərəfi ilə bağlı olsa da, yaradıcılıqdan kənarda qalmıram. Bayaq da dedim ki, mən bir tamaşa üzərində quruluşçu rejissor, quruluşçu rəssam, aktyorlarla çiyin-çiyinə çalışıram. Böyük danışmaq kimi çıxmasın, istər teatrımızın öz rejissorları və ya rəssamları, istərsə də, kənardan dəvət edilənlər elə bir tamaşa yoxdur ki, onun hazırlanması prosesində mənim fikrimdən bəhrələnməsinlər, mənim məsləhətimdən istifadə etməsinlər…



**- Bayaq dediniz ki, tamaşalar üzərində quruluşçu rejissoplapla birgə işləyirsiniz. Teatrda ən çox şıltaqlıq edən rejissor kimdir? İstərdim səmimi deyəsiniz, o hansı rejissordur ki, ona tamaşa həvalə olunanda, "ay da, 3-4 ay başımız xarab olar da yenə" deyirsiniz?..**

- Mən onu rejissor şıltaqlığı yox, tələbkarlığı adlandırardım. Mən özüm çox tələbkar olduğuma görə, ən sərt tələbkar rejissorla işləməkdən zövq alıram.

Çünki hər bir rejissor istəyər ki, tamaşası əla alınsın. Mənim üçün fərq etməz, rejissor tələbkar olmasa belə, özümə qapşı çox tələbkaram. 3-4 ay məsələsinə qaldıqda isə, ən ağır tamaşaları 1 aya hazırlayıb təhvil vermişik. Mən bədii quruluş hissə müdiri təyin ediləndən bəri yadıma gəlmir ki, bir tamaşa o biri tamaşanın təhvil verilməsinə mane olsun. Bizdə hər bir tamaşanın təhvil verilmə planı var və özümüzə əziyyət olsa da, çalışırıq ki, vaxtında təhvi verilsin. Siz bayaq dediniz ki, səmimi olum. Mən deyərdim ki, indiyə qədər ən çox razı qaldığım Nicat Kazımovdur. Bu adam öz işinə çox məsuliyyətlidir. Adi bir geyimin krujevasının necə tikilməsinə də ciddi yanaşır. Söz ki, rejissorlardan düşdü, qoy düzünü deyim də. Nicat Kazımov tamaşalarına ürəyini verən adamdır. O, gecə-gündüz tamaşanın üzərində çalışır. Tamaşanın quruluşu bir yana, hətta səhnə fəhləsi ilə birlikdə səhnədə işləyir. Dekorasiyanın hazırlanmasından tutmuş, paltarlardakı krujevanın formasınadək hamısında iştirak edir. Mən Nicatla işləməkdən zövq alıram. Cənnət Səlimova, Bəhram Osmanov təcrübəli rejissorlardır. Onlar tamaşa hazırlamağa başlayanda nə istədiklərini aydın başa sala bilirər. Amma elə vaxt olur ki, bir-birimizi başa düşmürük. Amma Nicatla necə deyərər, bir işarədən bir-birimizi anlayırıq.

### *Bədii quruluş hissəi müdiri lazım olanda dərzi, dülgər, rəsam, işıqçı, tərtibaçı olmağı bacarmalıdır…*

**- Heç rejissorlarla mübahisələriniz düşürmü? Mübahisələr ən çox nəyə görə olur?**

- "Romeo və Cülletta" tamaşasının rəssamı gürcüstandan dəvət edilmişdi. Onun verdiyi tərtibatın əksər hissəsini mən dəyişdim. Əvvəlcə razılaşmadı, bir az mübahisə etdik, amma sonunda razılaşdı. Əli Əmirlinin "Mən səni sevirəm" tamaşasında da dəyişiklik etmişəm. Quruluşçu rəssamı Tahir Tahirov idi. Bir sözlə elə bir tamaşa yoxdur ki, sözün yaxşı mənasında mən müdaxilə etməyim.

**- Belə çıxır ki, siz rəssamın, dekorçu rəssamın, rekvizit ustasının, səhnə tartibatçısının da işini bacarırsınız?**

- Bəli, bədii quruluş hissə müdiri siz sadaladıqlarınızın hamısını bacarmalıdır, yəni teatrdakı bütün peşələrin yığcam formasıdır. Bədii quruluş hissəi müdiri lazım olanda dərzi, dülgər, rəsam, işıqçı, tərtibaçı olmağı bacarmalıdır.

**- Onda özünüz tamaşa hazırlamaq istəsəniz, sizə rahat olar ki... Rejissor kimi tamaşa hazırlamaq istəmisinizmi?**

- Fikrimdən keçib, amma müraciət etməmişəm...

**- Hansı əsəri səhnələşdirmək istəmisiniz?**

- Konkret bir əsər yox, ümumiyyətlə tamaşa hazırlamaq istəmişəm. Lakin bir dəqiqə vaxt tapmıram ki, bu barədə ciddi fikirləşim. Quruluşçu rəssam kimi tərtibat vermişəm. Yeni il və Novruz bayramı ilə əlaqədər hazırlanan tamaşaların tərtibatını etmişəm.

Bundan başqa Cənnət xanımla "İtalyansayağı xoşbəxtlik" tamaşasını hazırladıq. Sözün düzü, rejissorlara direktorumuz mənim tərtibat verməyimi məsləhət görüb.

**İltifat HACIXAHOĞLU**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**№ 59 (2240) 8 iyun 2021-ci il**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Regionda sabitliyin qarantı Azərbaycanın ərazi bütövlüyünü tanımaqdır

**Bu gün dünyanın təkcə iqtisadi, həm də siyasi mənzərəsi çox rəngarəngdi. Bu da böyük güclərin daha çox baş-başa gəlməsinin və daha böyük bazarlara nəzarət etmək istəyinin nəticəsidir. Demək olar ki, ən böyük güclər sayılan ABŞ, Rusiya, Çin və eləcə də Avropanın digər dövlətləri hər gün hansısa bir məsələyə görə qarşılıqlı surətdə bir-birini ittiham edir. Nəticədə də dünyada siyasi gərginlik artır, hətta bunun bir qanadı olan hərbi sahə də önə çıxır. Bax, elə Çinlə Yaponiyanın, Ukrayna ilə Rusiyanın, Şərqdə İzraillə İranın və digərlərinin bir-birinə əzələ nümayişi göstərir ki, bəşəriyyət daha böyük hərbi fəlakətlərlə hər an üz-üzə qala bilər.**

Belə bir zamanda Ermənistana himayədarlıq edənlər öz böyük maraqlarını da gizlətmirlər, əksinə onların həm birbaşa, həm də müxtəlif vasitələrlə etdikləri təzyiqlər, verdikləri açıqlamalar göstərir ki, əsl həqiqətdə həmin dövlətlər öz maraqları üçün bu təşəbbüslərlə çıxış edirlər. Tutaq ki, Fransanı, Kanadanı, Ermənistanı himayə edən, dəstəkləyən bu bəyanatları bu regionda özəl maraqlara söykənir.

Nə qədər Ermənistan həmin maraqları gizlətməyə və onlara uzadılan əli demokratiyanın, azadlığın, yardımın, ədalətin ünvanı kimi qeyd etməyə çalışsalar da gerçək gün işığı kimi ortadadı. Onu gizlətmək, daldalamaq qeyri-mümkündü. Bu mənada Azərbaycan prezidenti cənab İlham Əliyevin Şuşa və Ağdama son səfərləri açıq şəkildə bəyan etdiyi kimi, ***"Azərbaycan heç kimin torpağını zəbt etməyib, heç kimin ərazisinə müdaxilə etməyib və heç kimə də müharibə elan etməyib. Biz sadəcə olaraq öz torpaqlarımızı işğaldan azad etmişik, ərazi bütövlüyümüzü bərpa etmişik və bu gün də azad olunmuş ərazilərimizdə quruculuqla insanların öz doğma ocaqlarına qayıtmasını təmin etmək üçün böyük sosial işlərlə məşğuluq. Bu işdə dost kimi, tərəfdaş kimi iştirak etmək hər kəs üçün də şərait yaratmağa hazırıq".***

Təbii ki, bu açıqlama birbaşa Azərbaycana təzyiq etmək istəyənlərə ünvanlanıb və onlara verilən cavabdı. Ona görə də Fransanın son zamanlar nümayiş etdirdiyi münasibətləri, xüsusilə onun ATƏT-in Minski qrupunun həmsədri kimi öz missiyasına heç də uyğun gəlməyən mövqe sərgiləməsi ilə diqqəti çəkməsi Azərbaycanda kəskin etirazla qarşılanır. Bununla bağlı həm Azərbaycanın Xarici İşlər Nazirliyi, həm ayrı-ayrı siyasi təmsilçiləri, qeyri-hökumət təşkilatçıları və digər qurumlar açıq şəkildə öz etirazlarını bildirmişlər. Burada bir məqam da var ki, artıq Fransanın özündə, onun ən yüksək dairələrində Fransa prezidentinin tutduğu mövqe etirazlarla qarşılanır. Azərbaycanda səfərdə olan Fransa senatının Xarici Əlaqələr Müdafiə və Silahlı Qüvvələr Komissiyasının vitse-prezidetləri Olivye Siqolotti və Joel Geryo mətbuata açıqlamalarında bildirmişlər ki, onlar ölkəmizdə olduqları müddət ərzində əsl reallığın şahidinə çevrildilər və onlara bəlli oldu ki, 1990-cı ilin əvvəllərindən, yəni Birinci Qarabağ savaşından keçən zaman müddət ərzində 4 min nəfərdən artıq azərbaycanlı itkin düşüb. Bu rəqəmlər özü-özlüyündə Ermənistanın tutduğu təcavüzkar işğalçı mövqeyini birmənalı şəkildə ifadə edir.



Göstərir ki, bu qədər insanın taleyinə biganə olan beynəlxalq aləm bu problemin çözümündə qətiyyət göstərən Minski qrupu konkret iş göstərmək əvəzinə yalnız münaqişəni dondurmağa cəhd göstəribdi.

Həm dövri mətbuat, həm internet medianın izlənilməsi zamanı Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı ortaya çıxan kifayət qədər bilgilərə rast gəlinir.

Həmin bilgiləri ədalətli şəkildə araşdıranda Azərbaycan həqiqətlərini görməmək, etiraf etməmək qeyri-mümkündü. Təəssüf ki, əleyhdarlarımız torpaqlarımızın işğalına dəstək verənlər bu gün də ikili standartlardan çıxış edərək daha çox laqeyd münasibətlərlə kifayətlənirlər. Elə Kəlbəcərdə öz vəzifə borcunu yerinə yetirərkən minaya düşərək şəhid olan iki azərbaycanlı jurnalistin - Məhərrəm İbrahimov və Sirac Abışovun faciəli tarixinə biganəlik nümayiş etdirməsi dediklərimizə aşkar sübutdur. Yalnız müəyyən ölkələrin jurnalist təşkilatlarının verdikləri başsağlığından başqa demək olar ki, heç bir rəsmi dövlət və hökumət qurumu bu terroru pisləmədi.

Deməli, gerçəkliyə ikili yanaşma Ermənistana hamilik etmək bu gün də öz qüvvəsində qalır. Amma istənilən halda Azərbaycan xalqı, Azərbaycan dövləti və onun Ali Baş Komandanı heç bir təzyiq və siyasi gedişlərlə barışmadan ərazi bütövlüyümüzün qorunması və işğaldan azad edilmiş ərazilərimizə yeni həyatın bərpası üçün tutduğu yoldan geri çəkilməyəcəkdir. Bunu görmək, izləmək üçün artıq tikilməkdə olan Füzuli hava limanına çəkilən, Zəfər yoluna Şuşada aparılan quruculuq-abadlıq işlərinə, Zəngilanda həyata keçirilən layihələrə, Suqovuşanda, Ağdamda gerçəkləşən reallıqlara diqqət yetirmək heç də pis olmazdı. Əksinə, bu görmək istəməyənlərə gerçəyin canlı nümayişi deməkdir. Hər kimsə gerçəklə barışmırsa, təbii ki, onun Azərbaycana heç bir aidiyyatı yoxdur. Ona görə də Ağdamda sosial obyektlərin, yeni mənzillərin özülqoyma mərasimlərində çıxış edən Azərbaycan prezidentinin söylədiyi fikirləri unutmamaq, əksinə onu yaddaşa yazıb bu gerçəklikdən nəticə çıxarmaq lazımdır.

Özünün Ağdama son səfəri zamanı Ali Baş Komandanımız, ölkə prezidenti cənab İlham Əliyev vurğuladı ki ***"Bu gün dövlət sərhədlərimizdə ermənilərin törətdiyi təxribatlar bir daha onu göstərir ki, Ermənistanda hələ də revanc etmək, yenidən nəyəsə nail olmaq istəyən qüvvələr var. Biz onları xəbərdar edirik. Edilən hər bir təxribat cavabını alacaq və düşmən yerindəcə məhv ediləcəkdir. Biz artıq öz sərhədlərimizi bərpa etmişik və öz ordumuzun gücü ilə düşməni susdurmaq qüdrətinə malikik. Heç kim bizə təzyiq göstərə bilməz, göstəriş verə bilməz! Azərbaycanın Dəmir Yumruğu yerindədir!".***

**Həyat gerçəkliyi ölkə prezidentinin söylədiklərinin məna və mahiyyətini birmənalı şəkildə açıq şəkildə ortaya qoyur. Bir daha bəlli olur ki, kimlərin vasitəsilə qızışdırılan, öz hakimiyyət davalarını Azərbaycana hərbi müdaxilə edən, reallaşdırmaq istəyən Ermənistandakı dairələr ölkəmizin bugünkü hərbi, iqtisadi gücünü nəzərə almır. Onlar düşünürlər ki, edəcəkləri təxribatlar və terrorlarla bizi qorxutmaq hansısa güzəştlərə məcbur etmək mümkün ola bilər. Amma bu düşmənin ən böyük yanlışlığı olmaqla yanaşı, həm də onların havadarlarının siyasi korluğudur. İndi bütün dünyanı, xüsusilə Amerikanın 44 günlük müharibə tariximizi öyrənməsi, hərb elmindəki yenilikləri araşdırılması özü-özlüyündə Azərbaycan gerçəkliyinin nəyə qadir olduğunu sübut edir. Deməli, düşmənin istənilən həmləsi anındaca öz cavabını almaq və məhv etmək qüdrəti ordumuzun ixtiyarındadır. Bu da o deməkdir ki, regionda sabitlik və sülh istəyən qüvvələr Azərbaycanla hesablaşmalı, bizim ərazi bütövlüyümüzü birmənalı şəkildə qəbul etməlidirlər. Yalnız Azərbaycanın ərazi bütövlüyünə hörmət və onu tanıma gerçəkliyi regionda inkişafa, sülhə şərait yarada bilər. Bu birmənalı gerçəkliyi artıq hamı qəbul etməlidir.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Bu suala cavab ver, Emin Piri!

**(4-cü yazı)**



*Şəfa Vəli*

**Hər şairin bir xəyali obrazı olur... Yalnız bir... Sadəcə, hərdən onu yer üzünə endirir, kiməsə bənzədir, kiminsə gözlərində həbs edir... Ta o zamana kimi ki, o ayaqları yerə dəyənin xəyalındakı olmadığını anlayır... Bax, o zaman qırılır, tökülür xəyalları... Adını da qoyur -"xəyal qırıqlığı"...**

***Səni sevmək,***
***zülüm bir iş,***
***burda doğulmaq kimi,***
***Alın yazısını***
***sondan əvvələ oxumaq kimi...***
***Səni sevmək***
***müsəlman orucunda iftara gələn***
***çoxillik şərab kimidi...***

Uşaqlıqda bir nağıl oxumuşdum. Bir padşah üç qızını yanına çağırıb soruşur:

**-Məni nə qədər çox istəyirsiniz?**

Qızların ən kiçiyi deyir:

**-Duz qədər.**

Padşah necə acıqlanırsa, qızını ölkədən qovdurur... Nağılın sonunda anlayır duzun dəyərini, qızının da sevgisini...

İndi biz şairiq axı... Yazırıq... Yazdıqlarımızı bax, o balaca qız demiş, "duz qədər" çox istəyirik...

Və bəzən, nağılların ən gözəl yerinin bizdən necə gizlədildiyini çox gec anlayırıq... Çox gec...

***"Kişilər ağlamaz"-deyən anam***
***yerimə özü ağlardı...***
***Nağıl söylərdi...***
***Göydən üç alma düşməzdi nağıllarında,***
***deməzdi bunu anam-***
***birdən ürəyimiz alma istəyər...***

Biz uşaq olanda... Boyumuz elə tez uzanırdı ki... Ayaqqabımız elə tez balacalanırdı ki... Yetmirdi, bir də o sinif şənlikləri vardı ha! Zəhləm gedən sinif şənlikləri... Varlı uşaqlar təşkil edirdi onu həmişə... Və onlar lazım olan pulu on gün öncədən yığırdılar... "Yadımdan çıxıb evdə qalıb"-demək də yadımızdan çıxırdı bəzən... Axı, yalana tez alışa bilmirdik... O şənliklərdə ən sonuncu pul verənlərdən olurduq deyə hamı üzümüzə tərs-tərs baxırdı... Stolun üstündəki almanı da ürəklə götürüb dişimizə çəkə bilmirdik. Qonşudan borc alınan pula alma alıb sinif şənliyində stolu bəzəmək hikkənin son anı idi...

***Hindus olmasaq da,***
***atamızın cibinə görə***
***bölmüşdülər bizi***
***sinif otaqlarında***
***Kastalara.***

Böyüyürdük... "Adam olurduq"... Nələrisə gizlətməyi, hardasa nəyisə düzgün deməməyi öyrənə-öyrənə uşaqlıqdan gəncliyə doğru addımlayırdıq... Güzgülərdən utanmırdıq, çünki, heç baxmırdıq da... Paltarımızın bozarmış rəngindən utananda hardan biləydik ki, gün gələcək, rəngi getmiş ümidləri qorumaqçün ürəyimizi lənətləyəcəyik?! Olmayan oyuncaqlarımızdan danışmaq qədər dilimizə ağır gələn heç nə yox idi onda...

***Oynayanda belə varlı uşaqları***
***Bizi özlərinə yaraşdırmazdılar...***
***Paltarının yamağını gizləməkdi***
***varlıların gözündən***
***Kasıb uşaqların oyunu.***

Bu yazını yaza-yaza iş otağının aynasından eşiyə baxıram arada... Yağış yaman selləmə yağır... Balaca bir budaq üstündə bir-iki yarpağı özünü pəncərəyə çırpır ki, onun da gərəksiz olmadığını anlayım... Axı, o da bapbalaca boyu ilə yarpaqlayıb... Hələ gələn il çiçək açmağa, bar gətirməyə olan iddiasına bax! Lap elə gənc yazarlar kimi... "Bizim kimi" deməyə utandım...

**Biz də, o ağac da, o yağış da... Hamımız Tanrının kölgəsində özümüzü daha məsud, daha qayğısız hiss edirik... Hələ, bəlkə, daha çılğın... Ya da... Bəlkə elə biz özümüz də, gördüklərimiz, yaşadıqlarımız da sadəcə, Tanrının kölgəsidir? Bu suala da özün cavab ver, Emin Piri!**

# DEYİMLƏR



*Məhərrəm Şəmkirli*

## Uşaq olaydım

Deyirəm, nə olaydı dönüb uşaq olaydım. Anamın qoynunda yuva quraydım. Anam doymaydı uşaqlığımdan. Səhərlər bilərəkdən tənbəllik edib durmayaydım yerimdən. Anam silkələyib oyadaydı məni. Mən şıltaqlıq edib üzü üstə çevriləydim. - Eh,ana,qoy bir az da yatım,- deyib incik- incik mızıldanaydım. Anam üstümü örtüb:- Yaxşı bir az da yat, məni tənbəl balam- deyib otaqdan çıxaydı. Mən də tez-tələsik paltarımı geyinib anamın arxasınca həyətə düşəydim. Anam məni görüb təccüblə deyəydi: -Bıy. Gözümün işığı, durdun?

Mən əl- üzümü yumadan,- Sənə qurban olum ana,-deyib boynuna sarılaydım. Və o qayğısız uşaqlıq dünyasının sevincini yaşaydım.

## Qadın qoxsu

***O, acıgözlüklə həyətdə təzə-təzə qönçələnən qızıl gülü qoxladı və bağrına basdı. -Oxay, necə də sənə bənzəyən qadının qoxsu gəldi səndən,-deyib dərindən bir ah çəkdi. Qəlbi qübar elədi, keçən sevgi dolu günlərini xatırladı. Gövrəldi, gözündən iki damla yaş şehli qönçənin düz ortasına düşdü.Ömrün bu qədər qısa olduğuna lənət yağdırdı.***

## Səbrim çatmadı

Mən azdan, çoxdan səbir eləməyi bacaran adamam. Amma bu dəfə səbrim, hövsələm çatmadı. Səbrim aşdı, daşdı, əsdim, coşdum, hayqırdım, qəzəbdən yumuruqlarımı düyünlədim, qəzəblə aramızdakı mizə çırpdım, dişimin dibindən çıxanı da dedim. Sən də sakit,başıaşağı dayanmamışdın. Səsini məndən də bərk qaldırmışdın. Bütün bunlara dözə bilmədim.Ürəyimi tutub yerə yıxıldım. Sən çantanı götürüb sürətlə evdən çıxdın. Səsə qonşular gəldi.

İndi aradan həftələr, aylar keçib. Sən hələ də qayıtmamısan, heç mən də sənin arxanca getməmişəm. Oturub dörd divar arasında səbizsizliyimə, hövsələsizliyimə lənət oxuyur, dilimə qarğış edirəm. Ancaq bilmirəm sən də özünü qınayırsanmı? Səhvini anlasaydın, özünü qınasaydın yenidən bir yerdə yaşayardıq.

## Yıxıb getdin

***Heç nədən hay-küy saldın və "sağ ol"belə demədən çıxıb getdin. Qarşına keçib, "getmə" dedim. Hətta qolundan tutub saxlamaq istədim.Yayından çıxan ox kimi əlimdən çıxdın.Onda bildim ki, getməyə qərarlısan. Fikirin qətidir. Ona görə də daha qarşına keçmədim. Sadəcə arxanca "yaxşı yol",-dedim və dərindən bir ah çəkdim. Sən hər şeyi atıb getdin. Canım çıxıb bunların hamsına dözərəm. Amma bircə şeyə dözə bilməyəcəm.Birirsənmi nəyə? Hardan biləsən.Bilsəydin bu dava- dalaşı eləyərdin!***

***Sən 20 ilə dişimiz- dırnağımızla qurduğumuz yuvamızı uçurdun. Yuvamızı.***

## Məni qarğımayasan

Tanrı xatirinə, bir çörək pulu ver,- deyib qarşımda əl açırsan. Əlinə, ayağına, qamətinə baxıram. Hamsı öz yerində, bir nöqsanın yox. Maşallah, sapsağlamsan. Lap buz baltası kimi. Ürəyi yumuşaqlıq edib mənə tərəf uzanan əlinə bir çörək pulu qoysam Tanrım məni qınayar. Bilirsənmi niyə? Bilmirsən, hardan da biləsən? Sən sağlam ola- ola sədəqə yığmaq yolunu tutmusan. Sənə bir çörək pulunu niyə vermədiyimi qoy deyim ki, sonra məni qarğamayasan. Tanrımız biz insanlara sənin kimilərə yox, əlsiz- ayaqsızlara,imkansızlara,kimsəsizlərə kömək etməyi rəva görüb.

## Gördüyün kimi

***Zəng eləmişdi. Əvvəl salam verdi, sonra da soruşdu:- Oralarda nə var, nə yox? Dedim,elə gördüyün kimidir. Necə qoyub getmisən eləcədir.Tıxaclı küçələr, maşınlı səkilər, sağını, solunu bilməyən adamlar və bir də bütün bunlara görə çəkdiyimiz ağrılar, əzablar.***

## Açar

Hər gün əlinə aldı sildi, təmizlədi, qoymadı pas atsıngöhnəlsin. Oğlu soruşdu, qızı soruşdu: ata, bu qıfılsız açarı nədən bu qədər əzizləyirsən, nəyinə lazımdır?

-Balalarım, illərdir əzizlədiyim açarın qıfılı əsrlikdə olan evimizdədi. Elimizə-obamıza dönüş ümidim kəsilməyib hələ. Bir də unutmayın ki, əldə açar olanda bağlı qapılar tez açılar.

***

Sən mərhəmətsizlik edib sonra da Allahdan mərhəmət istəyirsən?

***

Bu çiçəyin şirəsini arı çəkib ballaşdı, sən qoxlayıb çiçəkləşdin.

***

Zaman dəyişib nəyin doğru, nəyin yalan olduğunu müəyyən etmək olmur.

***

Elə bir səhv elədin ki, bir az belə olsun güzəşt yeri qoymadın.

***

Sən nə vaxtsa böyüyə ehtiramla, kiçiyə mərhəmətlə yanaşmısan?

***

Nə vaxt ki, insanlıq məcrasından çıxır, onda dünyanın fəlakəti başlayır.

***

Döyüş meydanında haqqı, ədaləti, gücü olan hay- küy salmır.Rahatca qələbəsini qazanır.

***

Hadisələrə baxışımız dəyişəndə, zamanın daha sürətlə getdiyini düşünürük. Amma zaman həmişəki axarıyla gedir. Onu qısaldan bizik.

***

Böyük qızın bəxtinin gec açılması, kiçik qızın ürəyində şübhələr yaratdı.

***

Bu qızın çiynində bulağa gedib - gəlməkdən güzə yorulmuşdu. Gündə nə qədər su daşımaq olardı?

***

Bu çinarı əkmədim ki, dibində ancaq özüm dincəlim. Əkdim ki,sevənlərin görüş yeri olsun.

***

Böyük dərdin də, böyük çəkəni olur.

***

Uzun illər biz qələbə haqqında yox, torpaq haqqında düşündüyümüzdən qələbəni gec qazandıq.

***

İnsanlar, bir-birinizə laqeyid olub, ürəyinizi daşlaşdırmayın.

***

Yurda qayıdışımız qandan, candan keçməklə həqiqətləşdi.

***

Şükür Tanrım, bundan sonra işğal günlərinin müsafiri olmayacam.

***

Bu gün yenə arıları güllərin,çiçəklərin ləçəyinin dibini öpən gördüm.

***

Günah valideyinin idi. Yazıq uşağın ayağına yazdılar.

***

Bir qəlbi sındırma. Sındırsan insansızlaşarsan,Allahsızlaşarsan.

***

Yazda,yayda ağacların gözəlliyini bəhbəhlə vəsf edən şair qışda evini qızdırmaq üçün onları baltaladı.

***

Sevgi nədir deyə soruşdu. Dedim onu Məcnunluq zirvəsinə qalxanda bilərsən.

***

Heç xatırlamaq istəmədiyim xatirələr qəfil gəlib ovqatımı korlayır.

***

Hər zaman böyük qapıları böyük açarlar açıb.

***

Bu qış mən güvəndiyim dağdan başqa bütün dağlara qar yağdı.

***

Tanrı dağa, daşa, gülə, çiçəyə. qurda, quşa vətən verdi,təgcə erməniyə vətən vermədi. Onlar da havadarlarının köməyi ilə bizim torpaqlardan özlərinə vətən düzəltdilər.

***

Deyirsən səni unudacam. Məyər sənin unutmaq istedadın da var?

***

Dünən xarici havadarlarının köməyi və dəstəyi ilə, ermənilərin mat elədiyi Şuşa bu gün Müzəffər Azərbaycan ordusunun igidliyi sayəsində şahdır.

# Mənfi obrazların mahir ifaçısı: Nifrət etdiyimiz "Xaçaturyan" - 97

**O vaxt hələ gənc idim və doğma yurdumun erməni işğalı altında qalmasının , camaatımızın el-obasından pərən-pərən düşməsinin, kəndimizin igidlərinin şəhid olmasının ağır yükünün altında əzildiyimiz vaxtlar idi. Bir səhər məskunlaşdığımız Quzanlı-1 köçkün qəsəbəsində "Çiçəyin kafesi" nin yanındakı yerdən qaynama bulağın başına yığılmışdıq, qadınlar, uşaqlar, qocalar... Hamı pəjmürdəydi. Hamı kədərliydi, çünki hamı ötən axşam göstərilən "Fəryad" filminin təsiri altındaydı. Müharibədə - döyüşlər zamanı itkin düşmüş 25 yaşlı polis Vüqarın bacısı Məlahət Laçının işğal olunması xəbəinə qol götürüb oynayan "qalib erməni" dən danışanda gözlərindən yaş muncuq-muncuq olub süzüldü.**

Qarabağı işğal etmiş erməni düz 30 ildir ki, gözümüzə, yaddaşımıza o "qalib erməni" kimi həkk olunmuşdu. Bəli söhbət böyük sənətkar, təkrarsız istedad sahibi, Azərbaycanın teatr və kino aktyoru Məlik Dadaşovdan gedir.

Məlik Dadaşov həmin filmdə Xaçaturyan obrazını canlandırır. Oynadığı rolda peşəkarlıq göstərən aktyor bu filmdə ermənilərin iç üzünü açmağı bacarmışdı. Onların necə bir qaniçən, uşaq qatili olduğunu öz rolu ilə "Fəryad" filmində xalqa çatdırmışdı.











### Şeyx Nəsrullah, Qəmlo, Molla Sadıq, Xaçaturyan...

***Məlik Dadaşov 7 iyun 1924-cü ildə Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Neft sənayeçisi olan atası Nobellə birlikdə işləyib. Aktyor təhsilini 174 saylı orta və A. Zeynallı adına musiqi məktəbində alıb. Buranı bitirdikdən sonra başqa gənclər kimi, Məlik də müharibəyə yollanıb. Kontuziya alıb və 1943-cü ildə müalicəsini başa çatdırıb, yenidən hərbi hissələrdə musiqiçi kimi xidmət göstərib.***

1945-ci ildə ordudan tərxis olunduqdan sonra Məhərrəm Haşımovun təşəbbüsü ilə Gənc Tamaşaçılar Teatrında fəaliyyətə başlayıb. Bir müddətdən sonra Zaqatala Dövlət Teatrı açılıb. Aktyorluq fəaliyyətinə yenicə qədəm qoymuş Məlik bu teatra göndərilib. 1946-cı ilin mayında isə Şəmkir teatrına göndərilib. Burada bir il işlədikdən sonra 1947-ci ildə Teatr İnstitutuna - Adil İskəndərovun kursuna daxil olub. Həmçinin, filarmoniyanın mahnı və rəqs ansamblına rəqqas kimi işə götürülüb. 1950-ci ilin oktyabrında Milli Dram Teatrında fəaliyyətə başlayıb. Məlik Dadaşov 35-ə yaxın bədii filmdə çəkilib. "Axırıncı aşırım"da Qəmlo, "Dəli Kür"də Molla Sadıq, "Koroğlu" da Bolu bəy, "O dünyadan salam"da Şeyx Nəsrullah, "Birisi gün gecə yarısı"nda Nəriman Nərimanov, "Babək"də İbn Bəis, "Nəsimi"də Şirvanşah İbrahi obrazları hamının yaddaşındadır.

Bütün yaradıcı ömrünü Azərbaycan aktyor sənətinin inkişafına həsr etmiş görkəmli teatr və kino aktyoru Məlik Dadaşov 2 dekabr 1996-cı ildə vəfat edib.

### Mediayadan: Ermənistanın xalq artisti

Bir dəfə də Məlik Dadaşov instituta gedəndə "Malakan" bağının yanında bir qadın onu görüb qışqırmağa başlayır. "Ay camaat, bu adam ermənidi", - deyib camaatı yığır başına. Bu zaman bir əsgər aktyora yaxınlaşır və ondan sənədlərini tələb edir.

Görünür, cavan olduğu üçün aktyoru tanıya bilməmişdi. Qadın isə dediyinin üstündə təkid edirdi: "Mən onu televizorda görmüşəm, o, hərbçi ermənidir". Axırda aktyor əsgərə deyir, "bala mən azərbaycanlıyam, erməni yox. Sən cavansan, məni tanıya bilməmisən. Mən tanınmış aktyoram. Sadəcə filmdə erməni obrazını yaratdığım üçün qadın məni qarışıq salıb". Hətta "Fəryad" filmindən sonra erməni diasporu Məlik Dadaşova "Ermənistanın xalq qəhrəmanı" adını vermişdi. Aktyor isə Azərbaycan efirinə çıxaraq bəyan etmişdi ki, o, bu titulu qəbul etmir. Bu hadisədən sonra Məlik Dadaşov özünü çox pis hiss edirdi. Bəlkə də peşmançılıq çəkirdi: "Axı mən demişdim bu rolu oynamamalıyam. Bununla bütün xalqın sevgisini itirə bilərəm".

### Tanınmışların "nifrət" etdikləri aktyor adı: Məlik Dadaşov

Strategiyua.az saytı "Ən nifrət edilən aktyorumuz" kimdir? Sualına tanınmışlardan gələn cavablar:

*1. Rüstəm Behrudi: Rza Təhmasib ("Mehman" - Qaloş)*

*2. Mənsum İbrahimov: Məlik Dadaşov ("Fəryad" - Xaçaturyans, "Axırıncı aşırım" - Qəmlo)*

*3. Qan Turalı: Məlik Dadaşov ("Fəryad" - Xaçaturyans)*

*4. Dilqəm Əhməd: Məlik Dadaşov ("Fəryad" - Xaçaturyans)*

*5. Vüqar Əhməd: Nifrət etməmişəm, bilirəm ki, roldur. Aktyor mənfi rolunu məharətlə ifa edəndə film boyu şübhəsiz nifrət olur. Uşaqlıqda "Yeddi oğul istərəm" filmindəki roluna görə İsmayıl Osmanlıya nifrət edirdim. Böyüyəndə "Fəryad" filmində erməni Xaçaturyans, "Axırıncı aşırım" filmində isə Qəmlo roluna görə böyük aktyorumuz Məlik Dadaşova qarşı məndə qəzəb yaranıb. Teatrlarda isə mənfi rolların peşəkar ustası Fuad Poladova qarşı "nifrət" yaranıb məndə.*

*6. Nəsimi Nəbizadə: Məlik Dadaşov*

*7. Kənan Hacı: Azərbaycan kinosunda ən çox nifrət elədiyim obraz Kələntər dayı olub. Bu obrazı da rəhmətlik İsmayıl Osmanlı oynayıb. "Yeddi oğul istərəm" filmində bu obraz az görünür, amma tamaşaçının yaddaşında çox dərin iz buraxır.*

*8. Nilufər Muğantürk: Yəqin indi hamı filmlərin, 80-90% də Məlik Dadaşovun adını çəkib, mən tamaşadan deyim. Teatr səhnəsində çox sevdiyim aktyorlardan biri - İlqar Cahangirin "Məkkəyə gedən yol" tamaşasında oynadığı Xudayar bəy roluna görə zəhləm getmişdi o anlıq ondan, yəni o qədər gözəl oynamışdı ki, o cür sevdiyim aktyor əsəbləşdirə bilmişdi məni. "Məkkəyə gedən yol" tamaşasındakı Xudayar bəy roluna görə İlqar Cahangir.*

*9. İntiqam Hacılı: Məlik Dadaşov ("Fəryad" - erməni obrazı)*

*10. Cəlil Cavanşir: "Fəryad" filmindəki erməni roluna görə Məlik Dadaşova, "Yeddi oğul istərəm" filmindəki Kələntər roluna görə İsmayıl Osmanlıya uşaq vaxtı ciddi şəkildə nifrət edirdim.*

*11. Sərdar Amin: Məncə, Azərbaycan filmlərində mənfi obrazları ən yaxşı canlandıran obraz Məlik Dadaşovdur - "Fəryad" filmindəki Xaçaturyans, "Axırıncı aşırım" filmindəki Qəmlo obrazına görə.*

*12. Ərəstun Oruclu: İsmayıl Osmanlı ("Yeddi oğul istərəm" - Kələntər dayı)*

*13. Yafəs Türksəs: Məlik Dadaşov, İsmayıl Osmanli, Muxtar Maniyev.*

*14. Şahnaz Kamal: Məlik Dadaşov.*

*15. İradə Musayeva: Mənfi rolun öhdəsindən gələn ən yaxşı aktyor Məlik Dadaşov ("Axırıncı aşırım" filmində Qəmlo, "Fəryad" filmində erməni), Adil İskəndərov ("Mehman" filmində Kamilov) və s. Amma aktyora nifrət etmirəm qətiyyən.*

*16. Kürçaylı Məmmədov: Məlik Dadaşov ("Fəryad" - Xaçaturyans), Muxtar Manıyev ("Ölsəm bağışla" - Seyidrza), Rasim Balayev ("Otel otağı - Sədyar)*

*17. Qulu Ağsəs: Məlik Dadaşov.*

*18. Məti Osmanoğlu: Ağlım kəsəndən aktyorla onun oynadığı rolu eyniləşdirməyim yadıma gəlmir. Əksinə, mənfi rolları məharətlə oynayan aktyorlara böyük rəğbətim olub. Məsələn, İsmayıl Dağıstanlı Kələntər obrazını böyük ustalıqla yaradılıb və bu rola görə onu çox sevmişəm. Şeyx Nəsrullahı Məlik Dadaşov gözəl oynayırdı...*

*19. Rəşad Məcid: Məlik Dadaşov. Amma nifrət etmirəm, peşəkarlığına hörmət edirəm.*

*20. Narıngül Nadir: Məlik Dadaşovun oynadığı Xaçaturyansa görə bir müddət bu aktyoru görəndə ona qarşı mənfi hisslər yaranırdı. Düşünürəm ki, Məlik Dadaşov bu rolun öhdəsindən olduqca məharətlə gəlib. İstər üzünün ifadəsi, mimikası, istərsə də aktyor oyunu son dərəcə uğurludur.*

Qeyd edək ki, böyük aktyor 3 dəfə ailəli olub. Xalq artisti Sofa Hüseynova ilə ailəliyindən Xalq artisti Rafael Dadaşov, ikinci evliliyindən iki qızı dünyaya gəlir. Qızın biri yeniyetmə çağına xəstəlikdən vəfat edir. O biri qızı isə ailə qurub ABŞ- köçür. 3-cü evliliyindən Dolores adlı xanımla evlənir və Gülnarə adlı qızı dünyaya gəlir.

**Əntiqə Rəşid**

## Ayda dinozavr izi, təyyarə ilə uçan boşqabın toqquşmaq təhlükəsi, "Elf" ildırımı



**Sürix hava limanında yerə enməyə hazırlaşan təyyarənin sərnişinləri qorxulu anlar yaşayıblar. Belə ki, təyyarə səmada uçan naməlum obyekt ilə qarşılaşıb.**

Sərnişinlərdən biri bu dəhşətli anları videoya çəkib.

Kadrlarda Sinqapurdan gələn hava gəmisinin enişə hazırlaşdığı görünür. Təyyarənin şassiləri artıq açılıb. Birdən təyyarə yana əyilməyə başlayır və uçan naməlum obyekt onun bir metrliyindən ötüb keçir.

Sonrada məlum olub ki, təyyarənin əyilməsi məhz bu obyektlə toqquşmadan yayınmaq məqsədi daşıyıb. Pilotlar uzaqdan yaxınlaşan naməlum obyekti görərək, son anda onunla toqquşmadan yayına və sərnişinlərin həyatını xilas edə biliblər.



Təyyarə sağ-salamat yerə enib. Hazırda müvafiq qurumlar məsələ ilə bağlı qaraşdırma aparır.

Beynəlxalq Kosmik Stansiyanın kameraları "elf" və "mavi cet"ləri çəkə bilib.

"Mavi cet " fırtına buludlarından yuxarıya doğru atılan boru-konus şəklində göy rəngə çalan ildırımdır. Uzunluğu 40-70 kilometrə qədər olur.

"Elf"lər isə buludların səthində nəhəng konus formalı işıq saçan ildırımdır. Onların diametri təxminən dörd yüz kilometrdir.

Bəzi alimlərin fikrincə, belə ildırım atmosferdəki istixana qazlarının miqdarına təsir edə bilər.

Qeyd edək ki, bu hadisələri Yer səthindən müşahidə etmək mümkün deyil.

Planetimizin yeganə peyki olan Aya ilk ayaq basan insan 1967-ci ildə NASA astronavtı Nil Armstronq olaraq bilinir.

Populyar elmi yazıçı Piter Brannen dinozavrların NASA-dan əvvəl Aya çatmış ola bilmək ehtimalının olduğunu deyib.

Onun sözlərinə görə, dinozavrlar Yer peykinə 66 milyon il əvvəl çatmış ola bilər.

**Brannenin iddiasına görə, 66 milyon il əvvəl bir meteoritin səbəb olduğu dağıntılar və dinozavr parçaları kosmosa atılan torpağa qarışaraq Aya gedib.**

**Eminquey**

### Dembele "Barselona"dan gedir



*"Barselona"nın futbolçusu Usman Dembele klubdan ayrılmağa yaxındır.*

*Qol.az xəbər verir ki, Kataloniya klubunun prezidenti Joan Laporta və direktorlar şurası 24 yaşlı yarımmüdafiəçi ilə müqaviləni yeniləməkdə maraqlıdır. Lakin oyunçu danışıqları ləngidir.*

*Oyunçunu bir neçə klub heyətinə qatmaq istəyir. Lakin həmin komandaların adları açıqlanmayıb.*

*Qeyd edək ki, Dembelenin klubu ilə hazırkı sözləşməsi 2022-ci ilin yayına qədərdir.*

### Deşam Mourinyonun cavabını verdi

*Fransa millisinin baş məşqçisi Didier Deşam "Roma"nın çalışdırıcısı Joze Mourinyonun yığma haqqında dediyi fikirlərə münasibət bildirib.*

*Qol.az xəbər verir ki, daha əvvəl Mourinyo Fransa millisini Avro-2020-nin favoriti kimi göstərərək söyləmişdi: "Fransa son dünya çempionudur və yarışın favoritidir. Onlar çempion olmaq məcburiyyətindədirlər. Əks-halda bu, onların uğursuzluğu sayılar".*

*Deşam isə portuqaliyalı mütəxəssisin cavabını belə verib: "Mən də onun çalışdırdığı "Tottenhem" haqqında eyni şeyi düşünürdüm. Amma təəssüf ki, nəticələr belə olmadı. Bəli, dünya çempionu olmağımız bizi Avropa çempionatının favoriti kimi göstərir. Amma bu bizə təzyiq göstərilməsinə əsas vermir".*

*Qeyd edək ki, Mourinyo ötən ay uğursuz fəaliyyətinə görə "Tottenhem"dən göndərilib. Bundan sonra o, "Roma"ya baş məşqçi təyin olunub.*

*Əlavə edək ki, Avro-2020 11 iyun - 11 iyul tarixlərində keçiriləcək.*

## Qalmaqallarla yadda qalan doğum günləri: 69 yaşlı "Diva"nın həyatı

**Azərbaycanlıların da çox sevdiyi, səsinə vurgun olduqları türk müğənnilərdən biri də Türkiyənin məşhur sənətçici Bülənt Ərsoydu. Hətta ötən il müğənni İstanbulda konsert zamanı sürprizlə qarşılaşıb.**

Üç min nəfərlik konsert proqramında Nigar adlı azərbaycanlı fanatı sənətçiyə brilyant üzük hədiyyə etmişdi.

Bu gün "Türk sənət musiqisinin divası" adlandırılan Bülənt Ərsoyun ad günüdür.

Adalet.az xəbər verir ki, həyatı kimi, ad günləri də olay olan məşhur türk sənətçisi, transseksual Bülənt Ərkoç 7 iyun 1952-ci ildə istanbulda anadan olub.

Əsl adı Bülənt Ərkoç olan bu sənətçi məşhurlaşdığı vaxt, 1970-ci illərdə görünüşünü sürətlə dəyişdi. Kişi olduğu halda səhnəyə qadın qiyafətlərində çıxmağa başladı. O illərdə bu hərəkət diqqəti cəlb etməyə bilməzdi, ona görə də bu müğənni sərt təpkilərlə qarşılaşdı.

1981-ci ildə Londonda keçirdiyi cinsiyyət dəyişdirmə əməliyyatı ilə qadın olan bu kişi-qadın müğənni indi də məşhur müğənnilər siyahısındadır. Bu əməliyyata sənətçi 40 min dollar ödəmişdi. Ərsoy 9 iyun 1981-ci ildə 29-cu ad günündə kiçik bir bayram şənliyi keçirib. O bu mərasimə "Bu, mənim 1-ci ad günümdür" deyə başlayıb.

O, kişi olduğu dövrə aid fotoşəkillərinin mətbuatda yayımlanmasından çox narahat olur. Vaxtilə kişi olduğunu unutmaq istəyən Bülənt Ersoy plastik əməliyyatlardan sonra cinsiyyətindən









əlavə dərisinin rəngində, dodaqlarında, yanaqlarında, burnunda, qaşlarında və bir çox başqa yerlərində də dəyişikliklər etdirib. Dövlətin qoyduğu qadağalara görə, bu durumda o səhnəyə qayıda bilməzdi.

Çünki Türkiyə hökuməti transseksualların səhnədə görünməsinə icazə vermirdi. Birbaşa olaraq dövlət başçısı bu kimi hallara qadağa qoymuşdu. Nəticədə Bülent Ersoy uzun müddət səhnədən uzaqlaşdırıldı.

2-ci qalmaqallı ad günü 2009-cu ildə baş tutub. Almaniyanın Stutqart şəhərində bir türk restoranında konsert verən Bülənt Ərsoy, 150 min avro dəyərində brilyant qaşlarla bəzədilmiş mikrofon işlədib. Pərəstişkarlar Bülənt Ərsoy üçün 109 avrodan başlayan biletlərlə 300 metr qırmızı xalı döşənən restoranı doldurub.

Restoran işçiləri Ərsoyun fotosunun olduğu doğum günü tortunu səhnəyə gətirib. İşçilər tortu təqdim etmək üçün ora-bura vargəl etdiyi zamanlarda Ərsoydan xəbərdarlıq işarəsi alıb. Türkcə bilmədikləri üçün müğənnini anlamayan işçilər işlərinə davam ediblər. Buna qəzəblənən Bülənt Ərsoy masanın örtüyünü çəkib aşıraraq, üzərindəkiləri yerə atıb. Salonda buz kimi soyuq abhava yaranıb, buna baxmayaraq, sevənləri onu gül yağışına tutub və konsert davam edib.

3-cü olay olan ad günü 2014-cü ildə olub. 62 yaşlı müğənni doğum gününü İzmirdə özündən 38 yaş balaca sevgilisi Bərk Yılmazın evində qeyd edib.

Məlumata görə, Bülənt Ərsoyla 3 ildir ki, bərabər olan B.Yılmaz sevgilisinə üzərində "Səni sevirəm" yazılmış oyuncaq ayı hədiyyə edib.

4-cü hər kəsin üzünü güldürən ad günü sürprizi də yaddaşlarda qalıb. Beləki, o dövrdə maqazin proqramları bu haqda xeyli kadrlar çəkib göstərib: "Müğənni Bülənt Ərsoy özündən 38 yaş kiçik sevgilisi Berk Yılmazın ailəsini ziyarət edib.

63 yaşlı sənətçi gələcək qayınanası Şahnaz Yılmazı görmək üçün İzmirə yollanıb. Sevgilisinin anası Büləntə sabahkı ad günü ilə əlaqədar sürpriz hazırlayıb. Şahnaz Yılmazla birlikdə tort kəsən B.Ərsoy çox duyğulanıb".

**Qeyd edək ki, Bülənt Ərsoy konservatoriyada təhsil alıb, ardınca filologiya üzrə ixtisaslaşan, "London Palladium"da və "Paris Olympia"da konsert verən ilk türk sənətçi olub və buna görə türk musiqi tarixə düşüb. Onun səsi Yaponiyanın səs laboratoriyasında test edilib "yüzdə yüz qüsursuz" adlandırılıb. "Beynəlxalq Montu Merid Musiqi Doktoru" mükafatına layiq görülən və bütün Türkiyə xalqı tərəfindən "diva", "kraliça" kimi sevgi ünvanlarına yiyələnən sənətçi bu gün 69 yaşına vida edəcək.**

**Əntiqə**

### Alleqri cinayətdə şübhəli bilinir



**"Yuventus"un baş məşqçisi Massimiliano Alleqri çirkli pulların yuyulmasında şübhəli bilinir.**

**Qol.az xəbər verir ki, Alleqri 2018-ci ilin avqustundan 2021-ci ilin aprelinədək "Oia limited" şirkətindən qumar oyunları sahəsində qanunsuz halda 161.000 avro məbləğində 7 bank köçürməsi alıb.**

**Bu müddət ərzində mütəxəssisin hesabına ayrıca Sloveniyada otel, oyun və əyləncə mərkəzləri kimi fəaliyyət göstərən Sloveniyanın "Hit DD Nova Gorica" şirkətindən 168.000 avro gəlib. Bu pulun mərc uduşlarından alındığı güman edilir, lakin digər şübhəli əməliyyatlar da istisna edilmir.**

**Bildirilir ki, Alleqri bu dövrdə qumarla əlaqəli əməliyyatlara 356.000 avro xərcləyib.**

**Qeyd edək ki, Alleqri mayın 28-də "Yuventus"a baş məşqçi təyin olunub.**

Lənkəran rayonu Kərgəlan kənd sakini Əskərov Asif Dövlət oğluna 20 dekabr 1997-ci il tarixdə 12 saylı qərarı ilə torpaq sahəsinə verilmiş dövlət aktı (JN 0064 kod 80212018) itdiyi üçün etibarsız sayılsın.

Faiq Qismətoğlu yazıçı-publisist **Nazir Çərkəzoğluna** əzizi

**Ziyad Vahid oğlu Allahverdiyevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əliqismət Lalayev ailə üzvləri ilə birlikdə Salyanda **Aşıq Pənah Pənahovun ailəsinə** əzizləri

**Taleh Pənah oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**



Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**



**Tiraj: 2000**
**Sifariş: 102**
Çapa imzalanmışdır: 07.06.2021